“АИЛӘ ТӘСӘРРҮФАТЫНЫН БАШЧЫСЫ ОЛУБ БҮДЧӘ ТӘШКИЛАТЛАРЫНДА ИШЛӘЈӘН ГАДЫНЛАР АРАСЫНДА КАСЫБЛЫГЫН АЗАЛДЫЛМАСЫ ВӘ АРАДАН ГАЛДЫРЫЛМАСЫ ЈОЛЛАРЫ” ЛАЈИһӘСИ



2000
906

Ф 74 (2А)
А 40

Ачыг Ҹәмијјәт Институту - Азәрбајҹан

Гадынларын Програм Шәбәкәси

Гадынларын Инсан Һаглары - Аддым-Аддым

Бејнәлхалг Гадын, Ганун вә Инкишаф

Гадынлар үчүн инсан һаглары үзрә лидерлији тәкмилләшдирмә тренинги

“Аилә тәсәррүфатынын башчысы олуб бүдҹә тәшкилатларында ишләјән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы јоллары” лајиһәси

АРХИВ

М. Ф. Ахундов адына
Азәрбајҹан Республика
КИТАБХАНАСЫ

69335

68856

ЈЕНИ НӘСИЛ

Бакы - 2000

Az 2
A 40

"Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар арасында касыблыгын азалдылмасы вә арадан галдырылмасы јоллары" лајиһәси. Бакы, "Јени Нәсил" ЈБ нәшријјат-полиграфија мәркәзи, 2000, 62 сәһ.

Тәртибатчы: *Ирадә ӘЛИЈЕВА*

Биз Ачыг Чәмијјәт Институту-Азәрбајчан вә онун Гадын програмлары үзрә Експерт Комитәсинә вә Бејнәлхалг Гадын, Ганун вә Инкишаф тәшкилатына бејнәлхалг лајиһәдә иштирак етмәк вә өз стратекијамызы һәјата кечирмәк имканына көрә дәрин тәшәккүр едирик.

Биз лајиһәмизин өлкәмиздә һәјата кечирилмәсиндә бизә јахындан көмәк едән вә билаваситә иштирак едән Д.Әлијева ад. Гадын Һүгуглары Мүдафиә Чәмијјәтинә вә онун «Демократија вә Инсан һаглары Тәһсил Мәркәзинин» директору Р.Һүсејноваја ; «Адам» сосиоложи Мәркәзинә вә онун директору Р.Гарагөзлүјә; «Мүлки Чәмијјәтә доғру» Мәркәзинә вә онун директору А.Бајрамлыја; Азәрбајчан Гачгын вә Мәчбури Көчкүн Гадын вә Ушаглара Јардым Чәмијјәтинә вә онун сәдри Ш.Дадашоваја; Бакы Инсан һаглары үзрә Ресурс Мәркәзинә, Хачмаз – Губа бөлкәси үзрә Инсан Һүгуглары Ресурс Мәркәзинә; Инсан һаглары тәшкилатлары Ресурс Мәркәзинин Чәнуб шөбәсинә(Ләнкәран); Вәтәндашларын Әмәк Һүгугларыны Мүдафиә Лигасына; Азәрбајчан Гадын журналистләр Ассосиасијасына; "Гадынлар Мусигидә" тәшкилатына; "Һүгуги Јардым Мәркәзи"инә; ајрыча Бәрдәдән К.Һүсејнова вә Ч.Кәримоваја; Ләнкәрандан Е.Турһидә, З.Ахундова вә М.Гасымоваја; Хачмаздан С.Мећдијева вә С.Рзајеваја үрәкдән миннәтдарлығымызы билдиририк.

A 0302010000-012 / 091-2000 Az 2

© Јени Нәсил" ЈБ нәшријјат-полиграфија мәркәзи

Ачыг Чәмијјәт Институтунун дәстәји илә Гадынларын Шәбәкә Програмы үзрә «Гадынларын Инсан Һаглары Аддым – Аддым» глобал лајиһәси чәрчивәсиндә Бејнәлхалг Гадын, Ганун вә Инкишаф гејри-һөкумәт тәшкилатынын (ГҺТ) «Гадынлар үчүн инсан һаглары үзрә лидерлији тәкмилләшдирмә тренинги» бејнәлхалг тәдрис лајиһәсиндә иштирак етмәк үчүн 1998-чи илин сентјабр-октјабр ајларында Азәрбајчандан да мүхтәлиф гејри-һөкумәт тәшкилатларыны тәмсил едән 5 нәфәр гадын сечилди:

Ирадә Әлијева (Д.Әлијева ад. Азәрбајчан Гадын Һүгуглары Мүдафиә Чәмијјәти), Сәбинә Мәсимова, Сәбинә Искәндәрли (Азәрбајчан Гадын Журналистләр Ассосиасијасынын Президенти), Ајтәкин Һүсејнова (Азәрбајчан Дүнјәви Јурдсевәр Кәнчләр Тәшкилаты), Афаг Искәндәрова (Гадынлар Мусигидә).

Бу гадынлар **Ачыг Чәмијјәт Институту-Азәрбајчан** јанында **Гадын Програмлары үзрә Експерт Комитәси** тәрәфиндән сечилмишләр.

Азәрбајчан командасынын үзвләри 1998-чи илин нојабр – декабр ајларында Будапештдә (Мачарыстан), 1999-чу илин мајында Улан Баторда (Монголустан) вә 1999-чу илин сентјабрында јенә Будапештдә һәр бири бир һәфтә олмагла тренингләрдә иштирак етмишләр. Бу мәшғәләләрдә Азәрбајчан командасындан башга кечмиш ССРИ, Мәркәзи вә Шәрги Авропанын пост-сосиалист республикалары вә Монголустандан олан һүгуг мүдафиәчиси вә ичтимаи фәал гадынлар иштирак едирдиләр. Тренингләри Бејнәлхалг Гадын, Ганун вә Инкишаф ГҺТ-нын (Вашингтонда јерләшир) президенти вә әмәкдашлары, АБШ вә башга өлкәләрдән мүвәггәти чәлб олунмуш тәдгигатчылар, һүгуг мүдафиәчиләри вә Университет мүәллимләри апарырдылар. Бу үч тренингин вә онлар арасында фәалијјәтин әһатә етдији әсас саһәләр ашағыдакылар иди:

- Инсан һаглары мүдафиәси саһәсиндә ганун вә механизмләрин јери вә әһәмијјәтинин дәрк олунмасы;
- Инсан һаглары мүдафиәси ситемини милли, рекионал вә бејнәлхалг сәвијјәләрдә тәтбиг етмәк бачарығы;
- Инсан һагларынын позулмасы һаггында сәнәдләшдирмә методларындан истифадә етмәк вә һесабат һазырламаг бачарығы;
- Гадын һагларынын мүдафиәси үчүн истифадә олуна билән һүгугмүдафиә стратекијасынын һазырланмасы.

Бу сahələrdə bilik və qabiliyyətləri təkmilləşdirmək ишиндə həm də «Гадынларын Инсан Һаглары Аддым-Аддым» адлы дәрсликдән вә башга јазылы материаллардан истифадә олунмушдур. Мәшғәләләр вә јазылы мәнбәләр јалныз инкилис дилиндә иди. Елә иштиракчы гадынлары сечәркән әсас шәртләрдән бири дә инкилис дилини билмәләри олуб. Тренингләрдә мүһазирә, суал-чаваб, команда шәклиндә вә гарышыг групларда тапшырыг вә ојунлар, фәрди чыхышлар кими методлардан истифадә олунмушдур. Тренингләрдә Ачыг Чәмијјәт Институтунун әмәкдашлары да јахындан иштирак етмишләр.

Һәр үч тренингин мәшғәләләри кәркин кечсә дә, бу өлкәләрин мәдәнијјәти вә тарихи јерләри илә танышлыға да јер ајрылмышды. Будапештдә гәдим килсәләрә, Буда илә Пешти бирләшдирән көрпүләрә, Дунај сahилинә вә мачар мусигиси сәсләнән јеләрә, Монголустанда исә музејләрә, буддист мәбәдләринә вә өлкәнин әсасыны гоjан Чинкизханын кәндинә вә јуртасына кәзинтиләр тәшкил едилмиш, монгол мусигиси, нәғмәләри вә рәгсләриндән ибарәт вида консерти верилмишди.

Биринчи тренингин сонунда һәр команда өз өлкәсиндә конкрет сahə үзрә гадын һүгугунун позулдуғу бир проблем ашкар етмәли вә ону арадан галдырмаг үчүн стратекија hазырламалы иди. Азәрбајчан командасы игтисади сahəни сечди вә артыг Бакыда проблеми арамаг вә әсасландырмаг үчүн тәдгигата башлады.

Ачыг Чәмијјәт Институту-Азәрбајчанын малијјә дәстәји вә онун Гадын Програмлары үзрә координатору Үлвијјә Микаjылова вә Експерт Комитәсинин үзвләри: Рәна Ибраһимбәјова, Лидија Рәсулова, Лариса Реjхрудел, Људмила Мәммәдова вә Новелла Чәфәрованың көмәји вә иштиракы илә Азәрбајчан командасы өз истигамәтини мүәjjәнләшдирди.

Азәрбајчан командасы : Әлиjева Ирадә, Мәсимова Сәбинә, Искәндәрли Сәбинә, Һүсејнова Ајтәкин вә Искәндәрова Афаг 1999-чу илин јанвар-мај ајларында конкрет тәдгигатлар апарыб, лајиһәнин мөвзусу вә ашкар олунмуш гадын проблемини әсасландырдылар. Беләликлә, «**Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләjән гадынларын адекват һәjат сәвиjjәсинә гejри-бәрабәр чатмасы» проблеми** меjдана чыхды.

Бура һәм о вахт вә һәм дә сон дөврдә әлдә олунмуш мәлуматлар дахил едилмишдир :

Азәрбајчанда сон сијаһыjаалмаjа көрә гадынларын сајы 4 милјон 50 мин нәфәрдир. Ишләjән гадынларын 343 мин нәфәри

бүдчә тәшкилатларында чалышыр. Өлкәдә кетдикчә daha чох сајда гадын өз аиләләринин әсас, чох вахт исә jеканә газанч кәтирәни олурлар. Азәрбајчан Республикасында аиләләрин сајы 1милјон 382 миндир вә онлардан 124 мининә гадынлар башчылыг едир, башга сөзлә 9% (башга мәлумата көрә никаһдан кәнар ушаглары олан гадынларла бирликдә 11%) тәшкил едир. Натамам аиләләрин 95%-нә дә гадынлар башчылыг едир.

Гадынларын башчылыг етдиjи ев тәсәррүфатларынын сајы һәм дә өлкәдә сон дөврдә баш верән ашағыдакы игтисади-сијаси һадисәләр сәбәбиндән чохалмышдыр:

- Ермәнистанла силаһлы мүнагишә вә һәм өлкә дахилиндә, һәм дә харичдә баш верән ичтимаи-сијаси вә криминал һадисәләр (террор, гәсд, гаршыдурма) нәтичәсиндә чох сајда киши һәлак вә 20 миндән чоху шаһид олмушдур.

- 1 милјона јахын гачгын вә мәчбури көчкүнүн олмасы (онларын 3- дә 2 һиссәсини гадын вә ушаглар тәшкил едир).

- Өлкәдә иш јерләри олмадығына көрә әмәк габилиjjәтли кишиләрин газанч далынча республикадан кәнара миграсијасы (2 милјона јахын).

- Бошанмаларын чохалмасы (белә ки, 1994-ү илдә мәһкәмәнин гәрары илә 6301 әризәдән 4981-и бошанма илә нәтичәләнмишдир). 1999-чу илин мәлуматына көрә бошанмалар артыр.

Беләликлә, гадынлар мүхтәлиф сәбәбләрдән аилә башчысы олурлар: әри, ја атасы вәфат етдиjинә, әри, ја атасы аиләни тәрк едиб кетдиjинә, һеч вахт никаһда олмаjан гадын аиләдә јашча һамыдан бөjүк олдуғуна, валидејнләри вәфат етдиjинә, аиләдә башга әмәк габилиjjәтли олмадығына көрә, әри, ја атасы һәбсдә олдуғуна, никаһданкәнар ушагларыны бөjүтдүjүнә көрә вә с.

Бүтүн бу сосиал-сијаси просесләр гадынларын игтисади вәзиjjәтини ағырлашдырмышдыр. Гадынлар һәм дә әмәк һаггы daha ашағы олан сahələрдә чәмләшмишләр. Белә ки, онлар өтән илләрдә олдуғу кими инди дә тәһсил, сәһиjjә, мәдәнијјәт вә сосиал тәминат кими сahələрдә daha чох чалышырлар: тәһсилдә гадынлар 68%, сәһиjjәдә 83%, китабхана вә музејләрдә 95% тәшкил едирләр. Өлкә үзрә гадынларын әмәк һаггы кишиләрин әмәк һаггынын орта һесабла 70%-ни тәшкил едир. Гадынларын аз һиссәси рәсми һаггы өдәнилән, чох һиссәси һәм гејри-формал, daha чох һиссәси исә һәм дә һаггы һеч өдәнилмәjән әмәклә мәшғул олурлар.

Азәрбајҹан Республикасында «адекват һәјат сәвијјәси» анлајышыны мүәјјән едән рәсми мејар јохдур. Анҹаг ашағыдакы анлајышлар мөвҹуддур:

I. Јашамаг үчүн зәрури олан минимум вәсаит бир адама бир ајда 120-130 мин манат (1 күндә 1$) тәшкил едир. Јашама минимуму мөвҹудлуг үчүн минимал тәләбат демәкдир.

II. Ишләмәјәнләр үчүн минимум истеһлак сәбәти 330 мин манат, ишләјәнләр үчүн исә 409 мин манатдыр.

III. Минимум әмәк һаггы (5500 манат) дүнјада ән аздыр. Бејнәлхалг Әмәк Тәшкилатынын гәбул етдији конвенсијалара әсасән минимум әмәк һаггы јашајыш минимумуна бәрабәр олмалыдыр.

IV. Орта әмәк һаггы артмыр. Бир ајда орта әмәк һаггы үмуми өлкә үзрә 202,9 мин манат олдуғу һалда, әсасән гадынларын чалышдығы бүдҹә тәшкилатларында орта әмәк һаггы Республика үзрә ән ашағы галмагда давам едир : тәһсил саһәсиндә 60-80 мин манат, сәһијјәдә 46 мин манат, мәдәнијјәт системиндә исә ондан да ашағыдыр. Мүгајисә үчүн әсасән кишиләрин ишләдији нефт сәнајесиндә әмәк һаггы орта һесабла 270-300 мин манат, полисләринки исә 150 мин манатдыр . Сон 4-5 илдә тәһсил, сәһијјә вә мәдәнијјәт саһәләриндә әмәк һаглары чәми 25-30% артырылдығы һалда, 1 ијул 2000 тарихдән ДИН әмәкдашларынын вәзифә маашлары 50%, рүтбәјә көрә мәвачибләри 2 дәфә артырылачаг.

V. Азәрбајҹан һөкүмәти өлкәдә касыблығын олмасыны рәсми танымышдыр. Бу,Игтисади, Сосиал вә Мәдәни һүгуглара даир бејнәлхалг Пактын һәјата кечирилмәси үзрә Азәрбајҹан Республикасынын илкин һесабатына әлавәдән (4 јанвар 1996)мәлум олур: Маддә 122. Статистик мәлуматларын әсасында әһалинин һәр адама дүшән орта номинал пул көлиринин мигдарына бөлүнмәси әсасында Азәрбајҹанда 7,4 млн. адам касыблыг һәддиндән ашағы сәвијјәдә јашајыр. Онларын 90%- и јашајыш минимумундан ики дәфә ашағы кејд олунмуш көлирә маликдирләр (март 1995).

Минимал һәјат сәвијјәсинин тәминаты үчүн кифајәт гәдәр көлирин олмамасы аиләләрин күтләви јохсуллашмасына көтириб чыхармышдыр. Белә ки, бүтүн аиләнин көлири һеч бир адамын јашама минимумуну тәшкил етмир.

Јохсуллуг хүсусилә аилә тәсәррүфатына башчылыг едән гадынларын вәзијјәтини көскинләшдирмишдир. Чүнки:

1) Онлар әрләринин мәнәви вә мадди дәстәјиндән мәһрумдурлар.

2) Дөвләт бу гадынларын ләјагәтли һәјат шәраитини тәмин етмәк әвәзинә, ја сосиал мүдафиәдән(имтијаз вә мүавинәтләрдән) мәһрум едир, ја ону мәһдудлашдырыр, ја да минимал еһтијачлары өдәјән сосиал мүавинәтлә тәмин етмир. Беләликлә дә гадынлары гејри-бәрабәр вәзијјәтә гојуб. Сон 6 илдә гадынлар дөвләт тәрәфиндән ашағыдакы мүавинәт вә имтијазлардан да мәһрум олмушлар:

- Бошанмыш аиләләрдә аталар алимент вермәкдән јајынанда аналар өз ушаглары үчүн дөвләтдән һәр ушаға ајда 2200 манат мүавинәт алырдылар. Лакин бу компенсасија 1996-чы илин мајында ләғв едилмишдир.

- Мүәллимләр үчүн олан коммунал хидмәтләрдән, јашајыш саһәсиндән вә ичтимаи шәһәр нәглијјатындан пулсуз истифадә кими күзәштләр 1997-чи илин ијул ајында ләғв едилмишдир.

3) Мөвҹуд олан мүавинәтләр исә бир сыра мәһдудијјәтләрлә верилир, мәс: Мәс.:әкәр аиләнин көлиринин 1 нәфәрә дүшән пајы 16 500 манатдан јүксәкдирсә, ушаг үчүн верилән 9000 манат вәсаит кәсилир.

Бу гадынлар али тәһсилли олмаларына, там иш күнү, һәтта әлавә ишләмәринә бахмајараг, ләјагәтли һәјат үчүн кифајәт гәдәр вәсаитә малик дејилләр. Лакин ев тәсәррүфатыны өзү идарә едән гадынларын әлавә газанмаг имканлары да аздыр, чүнки онлар әсас иш вахтындан сонра өз ушагларына, аһыл валидејнләринә вә јахуд аиләләринин онларын һимајәсиндә олан дикәр үзвләринин гајғысына галмалы, ев ишләри көрмәли, базарлыг етмәлидирләр вә с. Бундан башга бу гадынларын тапа биләчәкләри гејри-рәсми, јахуд гејри-гануни әлавә ишләр: евдә шакирд (тәләбә)һазырламаг, ушаглара ја гочалара бахмаг (дајәлик), варлы адамларын евләриндә хидмәтчилик етмәк, тичарәт (алвер) етмәк, һәјәтјаны саһәдә чалышмаг (кәнд јериндә), бәзән исә диләнчилик вә һәтта фаһишәликлә мәшғулдашыр.

Азәрбајҹан Республикасы БМТ-нин үзвүдүр вә инсан һаглары үзрә әсас бејнәлхалг сәнәдләрә гошулуб вә ја имза атыб:

- Мүлки вә Сијаси һүгуглар һаггында Бејнәлхалг Пакт (факултатив протоколдан башга);

- Игтисади, Сосиал вә Мәдәни һүгуглар барәдә Бејнәлхалг Пакт;

- Бејнәлхалг Әмәк Тәшкилатынын Конвенсијалары;

- Гадынларын һүгугларынын позулмасынын бүтүн формаларынын арадан галдырылмасы үзрә Конвенсија;

- Пекин Фәалијјәт Платформасы вә дикәр сәнәдләр.

Гадын Конвенсијасыны имзалајаркән вә Пекин Фәалијјәт Платформасына гошуларкән Азәрбајчан һөкүмәти гадынларын сосиал-игтисади вәзијјәтинин јахшылашдырылмасы үзрә хүсуси вә позитив (мүсбәт) тәдбирләр, лајиһәләр, програмлар вә сијасәтләр һазырламағы вә һәјата кечирмәји өһдәсинә көтүрмүшдүр. Анчаг конкрет тәдбирләр көрмәк әвәзинә, сон бир нечә илдә гадынларын һәјат сәвијјәсинин кәскин ашағы дүшмәсинә шәраит јаратмышдыр. Бејнәлхалг сәнәдләрә үјғун олараг гадынларын касыблашмағынын габағыны алмаг әвәзинә, онлары адекват һәјат сәвијјәсинә чатмаг имканындан мәһрум едир вә кифајәт гәдәр сосиал мүдафиә илә дә тәмин етмир. Бу гадынлар өзләриндән асылы олан һәр шеји едибләр: али вә ја орта ихтисас тәһсили алыблар, дөвләт мүәссисәләриндә ишләјирләр, буна бахмајараг минимал һәјат сәвијјәси үчүн кифајәт едән вәсаитә малик дејилләр. Бүтүн бунлар онларын сағламлыгларына, ушагларынын тәрбијә вә тәһсилинә, пешәкарлығына, билијинә, мәнәвијјатына, фәал вәтәндашлыг мөвгејинә мәнфи тәсир көстәрир. Нәтичәдә бу зијалы гадынлар әһалинин ән јохсул тәбәгәләриндән бирини тәмсил едирләр. Азәрбајчан һөкүмәти бүтүн вәтәндашлар гаршысында олдуғу кими бу гадынлар гаршысында да мәсулијјәт дашыјыр (АР Конститусијасы (1995 ил маддә 16 (1): «Азәрбајчан дөвләти халгын вә һәр бир вәтәндашын рифаһынын јүксәлдилмәси, онун сосиал мүдафиәси вә ләјагәтли һәјат сәвијјәси гајғысына галыр.»

Минимум Истеһлак Бүдчәси Һаггында Азәрбајчан Республикасы Ганунуна (1992) көрә: «Минимум истеһлак бүдчәси чәмијјәт тәрәфиндән онун индики инкишаф дөврүндә мүмкүн олан минимум сәвијјә кими гәбул едилмиш һәддән ашағы олмајан сәвијјәдә инсанын әсас физиоложи вә сосиал-мәдәни тәләбатынын өдәнилмәсини тәмин едәчәк истеһлак малларынын вә хидмәтләрин дәјәрини әкс етдирир. Минимум истеһлак бүдчәсинин дәјәри азтәминатлығын (јохсуллуғун) һәддини мүәјјән едир.»(1992 октјабр). Бу гануна Азәрбајчан Республикасы Назирләр Кабинетинин гәрарындан (август 1993): «... минимум әмәк һаггынын мигдарынын мәрһәләләр үзрә минимум истеһлак бүдчәсинин мигдарына чатдырылмасы механизми, һабелә пенсијаларын, мүавинәтләрин, тәгаүдләрин вә дикәр сосиал одәмәләрин минимум мигдарынын минимум әмәк һаггынын мигдарына ујғунлашдырылмасы...»

Бу тәдгигатларын нәтичәсиндә дә **«Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы јоллары»** адлы лајиһә јарадылды.

Лајиһәнин мүәллифләри, рәһбәрләри вә әсас ичрачылары Азәрбајчан командасынын үзвләридир. Лајиһәнин илкин мәгсәдләри белә иди:

- Гадынларын өз һагларынын позулмасы фактыны дәрк етмәси: аилә башчысы олан вә фәал гадынлар арасында маарифләндирмә семинарлары кечирмәк васитәси илә;

- Бу проблемә ичтимаијјәтин диггәтинин чәлб олунмасы : дәјирми масалар, јығынчаглар, фәрди көрүшләр, мәтбуат, радио вә телевизија васитәси илә;

- Дөвләт структурларынын аилә тәсәррүфатына башчылыг едән гадынлар гаршысында өз мәсулијјәтини дәрк етмәси үчүн лоббиләшдирилмәси.

Даһа узунмүддәтли мәгсәд исә: Дөвләт структурларына аилә тәсәррүфатына башчылыг едән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы үзрә Дөвләт Програмынын гәбул олунмасы вә һазырланмасы үчүн тәклифләрлә мүрачиәт етмәк : бунун ефективлији үчүн һазыр мәтнин алтында аилә башчысы олан гадынлардан имза топламаг.

* * *

Лајиһә рәсми сурәтдә өз фәалијјәтинә 1999-чу илин август ајындан әввәлдән нәзәрдә тутулдуғу кими **Бакыда, Бәрдәдә, Ләнкәранда** вә **Хачмазда** башламышдыр. Лајиһә үзрә ашағыдакы ишләр көрүлмүшдүр:

Һәмин илин октјабр ајындан аилә башчысы олуб бүдчә тәшкилатларында: орта мәктәбләрдә вә универсситетләрдә, хәстәхана вә поликлиникаларда, музеј вә Елмләр Академијасында, башга дөвләт мүәссисәләриндә ишләјән 535 гадын арасында **сосиоложи сорғу** апарылмышдыр.

Сосиоложи сорғунун нәтичәләри:

Сорғу нәтичәләринин гыса тәһлили (даһа долғун тәһлил чәдвәлләр шәклиндә верилир) белә олмушдур.

*5. **Аиләјә кәлән кәлирләр аиләнизин минимум тәләбләриндән һансыны өдәјир?***

7 №-ли чәдвәлдән көрүндүју кими респондентләрин әксәр һиссәси (респондентләрин үмуми сајынын 74,3 %) аиләләриндә јалныз јемәкләрини өдәјә билирләр. 12,1%-инин һеч бир

минимум тәләбини өдәмир. Јәни тәхминән һәр једди – сәккиз аиләдән биринде гида чатмамазлығы, башга сөзлә, мүнтәзәм ачлыг јашаныр.

6. ***Әкәр өдәмирсә нечә доланырсыныз?***

Респондентләрин үмуми сајынын 54,1%, јәни тәхминән һәр ики аиләдән бири борч ичиндә јашадығыны вә тәхминән һәр үч аиләдән бири (30,4%) гоһумлар вә танышларын көмәк етдикләрини гејд етмишдирләр (чәдвәл №8). Хачмаз рајону үзрә борч ичиндә јашадыгларыны гејд едән аиләләрин сајы башга реқионларла мүгајисәдә даһа јүксәкдир - 70,8%.

Гејд етмәк лазымдыр ки, аиләләринә тәк башчылыг едән гадынларын вә үмумијјәтлә онларын аиләләринин јашајыш сәвијјәсинин ашағы олдуғу һалда бу гадынлар арасында икинчи ишдә чалышанларын вә јахуд евдә ихтисаслары үзрә әлавә иш көтүрәнләрин сајы елә дә чох дејил (мүвафиг олараг 14,7% вә 14,2% - дир, чәдвәл №8). Буна сәбәб асудә вахтын гытлығы, мүнасиб ишин аз олмасы, үмумијјәтлә шәраитин олмамасы ола биләрләр. Ејни заманда демәк олар ки, сөзү кедән гадынларын јени квалификасија, јәни мүасир вә даһа чох тәләб олунан пешәләри вә ихтисаслары, мәсәлән харичи дилләри, компјүтер програмларыны мәнимсәмәк имканлары мәһдуддур. Гејд едәк ки, Бакы үзрә диқәр рајонлара нисбәтән икинчи (үчүнчү) ишдә чалышан гадынларын сајы даһа чохдур: Бакыда јашајан респондентләрин 17,5%, Хачмазлыларын – 4,2%, Бәрдәлиләрин – 4,8%, Ләнкәранлыларын исә – 9,8%, дедикләринә әсасән, икинчи (үчүнчү) ишдә чалышырлар (чәдвәл №8).

7. ***Сизчә минимум тәмин олунмаг үчүн аиләнизә ајда тәхминән нә гәдәр пул лазымдыр?***

Бу суала чаваб верәрәк, респондентләрин нисбәтән бөјүк һиссәси, онларын үмуми сајынын 22,6%, јәни тәхминән һәр бешиндән бири 600 001 – 800 000 манат (тәхминән $150 - 200) көстәрмишдир (чәдвәл №9). Үмумијјәтлә респондентләр тәрәфиндән даһа чох гејд олунан минимум тәмин олунмаг үчүн мәбләғ 400 000-дән 1 000 000 маната гәдәрдир (тәхминән $100-250). Нәзәрә алсаг ки, һазырда өлкә үзрә ишләјәнләр үчүн ајлыг минимум истеһлак зәнбили орта һесабла 409 000 манат тәшкил едир вә диқәр тәрәфдән респондентләрин аилә үзвләринин сајы әсасән 3 нәфәрдән ибарәтдир, демәк олар ки, гадынлар елә дә бөјүк мәбләғә иддиа етмирләр.

8. ***Сизин һал-һазырда олан ајлыг маашыныз вә аиләнизә кәлән диқәр кәлирләр (тәхминән) нә гәдәрдир?***

Респондентләрин үмуми сајынын 38,7% аиләләринә үмумијјәтлә кәлән ајлыг кәлирин 100 000 маната гәдәр олдуғуну гејд етмишдирләр. Сорғунун нәтичәләринә әсасән респондентләрин үмуми сајынын 51,7% аиләләринә кәлән ајлыг үмуми кәлирин 100 00 –дән 400 000 маната гәдәр олдуғуну көстәрмишдирләр(чәдвәл №12). Нәзәрә алсаг ки, һазырда өлкә үзрә физиоложи минимум(мөвчудлуг үчүн минимал тәләбат) ајда адамбашына 120 000 –130 000 манат тәшкил едир, сорғуда иштирак едәнләрин исә аиләләри әсасән 2-4 нәфәрдән ибарәтдир, демәк олар ки, сорғуда иштирак едән респондентләрин үмуми сајынын 90,4%-и јохсуллуг сәвијјәсиндә јашајыр.

9. ***Сизчә алдығыныз әмәк һаггы көрдүјүнүз ишин (пешәнизин) вә алдығыныз тәһсилин мүгабилиндә кифајәт гәдәрдирми?***

Бу суалы чавабландырараг респондентләрин үмуми сајынын 89,6% «чох аздыр» вә «гәтијјән кифајәт дејил» кими дәјәрләндирмишдирләр, бу да сөзү кедән гадынларын алдыглары әмәк һаглары илә бағлы наразылыгларынын көстәричисидир (чәдвәл №15). Гејд едәк ки, бу мәсәләдә али вә орта тәһсиллиләрин арасында елә дә бөјүк фәрг јохдур: али тәһсиллиләрин арасында «чох аздыр» вә «гәтијјән кифајәт дејил» кими чаваб верәнләрин сајы 90,4% -дирсә орта тәһсиллиләрин сајы – 88,2% тәшкил едир (чәдвәл №13 вә 14).

10. ***Сизин үчүн истәдијиниз сәвијјәдә мадди тәмин олунмаг нә демәкдир?***

Бу суала чаваб верәркән респондентләр ики амили даһа чох гејд етмишдирләр: «бол вә кејфијјәтли гида» вә «мөһкәм сағламлығын тәминаты» - үјғун олараг респондентләрин үмуми сајынын 88,6% вә 83,2% (чәдвәл №16). Көрүнүр, бу ики амил даһа чох әрзу олунандыр вә ејни заманда сөзү кедән гадынлар вә онларын аиләләри үчүн аз әлчатандыр. Башга тәрәфдән, диқәр амилләр, мәсәлән «дәбә үјғун палтар», «евин, мәнзилин там тәмир олунмасы» вә с. кими амилләр нисбәтән аз гејд олунмушдур. Һеч дә исрафчылыг әламәти олмајан вә мүәјјән дәрәчәдә зәрури олан бу вә диқәр амилләрин «истәкләр» сырасында елә дә чох олмамасы ондан хәбәр верир ки, сөзү кедән гадынларын имканлары бунлары әлдә етмәкдән чох узагдыр вә онлар бу амилләри өзләри үчүн о гәдәр дә реал һесаб етмирләр.

11. ***Касыб олмаг (мадди еһтијач ичиндә јашамаг) сизин фикринизчә нә демәкдир?***

Бу суала да чаваб верәркән респондентләр әсасән ики амили даһа чох гејд етмишдирләр: «дојунча јемәмәк» вә «хәстәликдән мүалиҹә олуна вә дәрман ала билмәмәк» - үјғун олараг респондентләрин үмуми сајынын 74,1% вә 71,6% (чәдвәл №17). Диқәр көстәричиләр респондентләр тәрәфиндән нисбәтән аз гејд олунмушдур, јәни респондентләрин әксәр һиссәси үчүн «евдә мебелин олмамасы вә ја көһнә, јарарсыз олмасы», «мағазадан борча әрзаг алмаг» вә јахуд «нәглијјат хәрчләрини өдәјә билмәмәк» һәлә касыблыг демәк дејил. Бу, долајысыјла респондентләрин чох ашағы олан јашајыш сәвијјәсиндән вә бу сәвијјәнин онларын дүнја көрүшү вә тәфәккүрүнә тәсир етмәсиндән хәбәр верир.

12. Имканыныз олса сиз иш јеринизи башга, даһа кәлирли ишә дәјишдирәрсинизми?

Респондентләрин үмуми сајынын 56,7% «бәли» чавабыны вермишдирләр, јәни бу гадынлар һазырки ишләриндән, әсасән алдыглары чох ашағы мәваҹибә көрә наразыдырлар (чәдвәл №18). Бу ону көстәрир ки, гадынларын әксәр һиссәси онлары ганеедичи маашла тәмин едән иш јерләрини тапа билмирләр. Диқәр тәрәфдән, бу һәм дә ону көстәрир ки, бу гадынлар мүхтәлиф сәбәбләрдән өз иш јерләринә кифајәт гәдәр «бағлы» дејилдирләр. Респондентләрин үмуми сајынын чәми 28,5% маашдан асылы олмајараг өз ишләрини дәјишмәк истәмирләр, јәни онлар ишләринә даһа дәрин бағлыдырлар.

13. Сиз һансы секторда ишләмәји үстүн тутардыныз?

14. Нә үчүн?

Өлкә үзрә дөвләт секторуна үстүнлүк верәнләрин сајы даһа чохдур вә респондентләрин үмуми сајынын 62,5% тәшкил едир вә јалныз дөрд гадындан бири (25,0%) өзәл сектора үстүнлүк верир (чәдвәл №19). Бакы үзрә бу фәрг диқәр рајонлара нисбәтән хејли дәрәчәдә азалыр: Бакыда өзәл сектора 29,9% үстүнлүк вердији тәгдирдә Хачмазда – 14,6%, Бәрдәдә – 7,1% вә Ләнкәранда – 7,3%-дир. Бу онунла изаһ олуна биләр ки, Бакыда өлкәнин диқәр шәһәр вә рајонларына нисбәтән өзәл сектор даһа чох инкишаф едиб вә пајтахтда өзәл секторда: јүксәк мааш өдәјән өзәл јерли вә харичи ширкәтләрдә даһа чох мүнасиб иш јерләри тапмаг мүмкүндүр. Диқәр шәһәр вә рајонларда исә бу гадынларын әсас иш јерләри дөвләт сектору илә бағлыдыр, вә бунун да әсас сәбәби дөвләт секторунун «даими иш јерләринин олмасы» илә бағлыдыр. Дөвләт секторуну үстүн тутан гадынларын рәјинчә дөвләт секторунда мүдириҹәтин рәфтары даһа јахшыдыр (чәдвәл № 20).

15. Азтәминатлы аиләләрә дөвләт гајғысыны өз үзәриниздә һисс едирсинизми?

Бу суала респондентләрин үмуми сајынын 81,9% мәнфи, јәни «хејр» вә «гәтиҹјән һисс етмирәм» чавабларыны вермишдирләр (чәдвәл №22). Дөвләт гајғысыны өз үзәриндә мүәјјән дәрәчәдә һисс едәнләрин, јәни «бәли», «гисмән» вә «чох аз» чавабларыны верән респондентләрин сајы чәми 15,4% тәшкил етмишдир. Бу да ону көстәрир ки, азтәминатлы аиләләрә дөвләт тәрәфиндән јөнәлмиш сосиал програмлар јарарсыздыр вә өз мәгсәдләринә наил ола билмирләр, вә јахуд бир чох һалларда сосиал програмлар үмумиҹјәтлә һәјата кечирилмир.

16. Аиләнизин бүтүн үзвләринин дөвләтдән сон 10 илдә алдығы мүавинәт, имтиҹаз вә мадди јардымларын бир нечәсини садалајын.

Бу суала респондентләр әсасән ушагларына көрә тәгаүдләрин алындығыны гејд етмишләр, респондентләрин үмуми сајынын 10,8% (чәдвәл № 23). «Мүхтәлиф мүавинәтләр» вә «мүхтәлиф имтиҹазлар» арасында, бир чох һалларда 7-8 ил бундан әввәл тәтбиг вә 1997-чи илдә ләғв олунмуш мүәллимләр үчүн имтиҹазлары гејд етмишләр.

17. Сиз өзүнүзү нә заман даһа тәминатлы һесаб етмишсиниз?

18. Нә үчүн?

Респондентләрин чох чүзи бир һиссәси, јәни үмуми сајынын чәми 3,0% индики заманда өзләрини даһа тәминатлы һесаб едирләр, 91,7% исә әввәлләр, мүхтәлиф заманларда өзләрини даһа тәминатлы олдугларыны һесаб едирләр вә 2,2% өзләрини үмумиҹјәтлә һеч вахт тәминатлы олдугларыны һесаб етмирләр. Диқәр заманларла мүгаҹисәдә даһа чох респондентләр өзләринин 6 – 10 ил әввәл нисбәтән тәминатлы олдугларыны гејд етмишдирләр, јәни 1990 – 1994 илләрдә, бу да респондентләрин үмуми сајынын 22,2% тәшкил етмишдир (чәдвәл №24).

Индики заманла мүгаҹисәдә әввәлләр даһа тәминатлы олдугларынын сәбәби кими респондентләр даһа чох, онларын үмуми сајынын 61,0% «әввәлләр гиҹмәтләрә нисбәтән әмәк һаггы јүксәк иди» амилини көстәрмишдирләр (чәдвәл №25). Башга, даһа чох гејд олунан сәбәбләрдән һәм дә «әввәлләр әрим вар иди вә һәр икимиз ишләјирдик» (43,3%), «әввәлләр аиләмин кәлири даһа чох иди» (30,8%) вә «әввәлләр сосиал мүавинәт вә күзәштләр даһа чох иди» (22,8%) гејд едилмишдир.

19. Сизчә мадди еһтијач инсанын мәнәви инкишафына мане олурму?

20. Әкәр мане олурса, нечә?

Бу суала (№19) респондентләрин әксәр һиссәси, онларын үмуми сајынын 91,6% «бәли» чавабыны вермишдирләр (чәдвәл №28), јәни демәк олар ки, респондентләр кифајәт гәдәр мәсәләни дәрк едир вә мадди јохсуллуғун нәтичә етибарилә мәнәви деградасијаја кәтириб чыхарачағыны анлајырлар. Гејд едәк ки, Бакы вә јахуд әјаләтдән олдугларындан вә һәмчинин тәһсилләриндән асылы олмајараг респондентләр мәсәләни кифајәт дәрәчәдә дәрк етдикләрини нүмајиш етдирмишдирләр (чәдвәлләр №26,27,28). «Әкәр мане олурса, нечә?» суалына чаваб верәрәк, респондентләр даһа чох «кәләчәјә инам һисси азалыр» (73,7%), «өз ләјагәтинә үјғун һәјат сүрә билмирсән» (68,7%) вә «ушагларына јахшы тәһсил верә билмирсән» (42,7%) гејд етмишдирләр.

21. Сизчә аилә башчысы олуб, ихтисаслы вә ишләјән гадынын касыблығына көрә ким мәсулијјәт дашыјыр вә ја бунун сәбәби нәдәдир?

Респондентләр бу суала чаваб верәрәк даһа чох, респондентләрин үмуми сајынын 71,1%, «дөвләт» амилини гејд етмишдирләр (чәдвәл №32). Бу амили дикәр амилләрлә мүгајисәдә респондентләр демәк олар ки, ики дәфә чох гејд етмишдирләр, мәсәлән «мүһарибә» амилини респондентләрин үмуми сајынын 38,8%, «әринин олмамасы» - 37,3% вә «гурулушун дәјишмәси» - 37,1% тәшкил етмишдир, дикәр амилләр исә даһа да аз сајда гејд олунмушдур. Башга сөзлә, респондентләр тәһсилләриндән вә јашадыглары әразидән асылы олмајараг касыблығларына көрә мәсулијјәтин әсасән дөвләтин үзәриндә олдуғуну һесаб едирләр (чәдвәлләр №30, 31). Бурада јалныз Бәрдә рајону үзрә респондентләрин рәји башга рајонларла мүгајисәдә фәргләнир – Бәрдәли респондентләрин сајынын јалныз 47,6% «дөвләт» амилини гејд етмишдирләр, амма бу да кифајәт гәдәр јүксәк фаиздир, белә ки, бәрдәлиләр ондан чох анчаг «әринин олмамасы» амилини көстәрмишдирләр (50,0%).

22. Аиләнизә тәк башчылыг етдијинизә көрә јашадығыныз чәмијјәтин сизә мүнасибәти нечәдир?

Бу суала респондентләрин кифајәт гәдәр бөјүк һиссәси (39,7%) «хүсуси бир мүнасибәт һисс етмәмишәм» чавабыны гејд етмишдир (чәдвәл №33). Респондентләрин дикәр 41,5% «көмәк етмәјә чалышырлар», «күзәшт едирләр» вә «һөрмәтлә јанашырлар» чавабларыны вермишдирләр.

23. Сизчә аиләсинә башчылыг едиб ишләјән гадынларын арасында касыблығы азалтмаг үчүн нә етмәк лазымдыр?

Бу мәсәләдә респондентләрин үмуми сајынын 83,4% һесаб едир ки, «әмәк һагларыны артырмаг» лазымдыр (чәдвәл №36). Бунунла јанашы, респондентләр дикәр амилләрин арасында даһа чох «иш јерләринин артырылмасы» (34,0%) вә «дөвләт тәрәфиндән бу гадынлар үчүн хүсуси програмын гәбул едилмәсини» (32,6%) гејд етмишдирләр. Гејд едәк ки, Хачмаз рајонунда дикәр бөлкәләрә нисбәтән «иш јерләринин артырылмасы» амили даһа чох көстәрилмишдир – 68,8%.

Касыблығын азалдылмасы үчүн респондентләр башга мүмкүн тәдбирләри дә гејд етмишдирләр, о чүмләдән: «сосиал мүавинәтләри артырмаг» (26,7%) вә «сосиал имтијазлар вермәк вә ја бәрпа етмәк» (12,5%). Көрүндүју кими, респондентләр касыблығын азадылмасы мәсәләсиндә әсас тәдбирләр арасында әнәнәви «әмәк һагларынын артырылмасы» илә јанашы «иш јерләринин артырылмасы» вә «дөвләт тәрәфиндән бу гадынлар үчүн хүсуси програмын гәбул едилмәсини» көрүрләр. Бунунла белә, һәм дә нәзәрә алынса ки, респондентләрин 81,9% үзәриндә һеч бир дөвләт гајғысы һисс етмирләр (чәдвәл №22), демәк олар ки, дөвләт тәрәфиндән бу груп гадынлар үчүн хүсуси вә еjни заманда сәмәрәли вә ишләк програмын ишләниб һазырланмасы чох вачиб көрүнүр.

24. Гадынын тәк идарә етдији аилә илә һәр ики валидејнин олдуғу аилә арасында сизчә әсас фәрг нәдәдир?

Респондентләрин үмуми сајынын 25,7% гадынын тәк аилә тәсәррүфатына башчылыг етдији аиләләрдә мадди проблемләрлә даһа чох үзләшдијини гејд етмишдирләр (чәдвәл №37) вә јалныз 6,7% һәмин аиләләрдә даһа чох мәнәви сарсынтылырла үзләшдијини вә 19,2% һәмин аиләләрдә һәм мәнәви һәм дә мадди сарсынтыларла үзләшдикләрини гејд етмишдирләр. Көрүндүју кими, респондентләр бир гәдәр чох мәсәләнин мадди тәрәфини вурғулајырлар.

25. Сизчә, ихтисаслы, ишләјән вә аиләсинә башчылыг едән гадынларын касыб олмасы онларын һүгугунун позулмасыдырмы?

Бу суала респондентләрин әксәр һиссәси «бәли» вә «гисмән» чавабларыны версәләр дә (үјғун олараг 65,3% вә 11,8%), өлкә үзрә респондентләрин кифајәт гәдәр бөјүк һиссәси һесаб етмир вә јахуд да билмир ки, касыблыг инсан һүгугларынын позулмасы

демәкдир – «хејр» вә «билмирәм» чавабларыны верән респондентләрин сајы 22,7% тәшкил етмишдир (чәдвәл №40). Бу көстәричи Бәрдә вә Ләнкәранда даһа јүксәкдир, белә ки, Бәрдәдә «хејр» вә «билмирәм» чаваб верәнләрин үмуми сајы Бәрдәдән олан респондентләрин 35,7%, Ләнкәранда исә – ләнкәранлыларын 34,1% тәшкил етмишдир. Бу бахымдан, Хачмазда вәзијјәт даһа јахшыдыр, белә ки, хачмазлыларын 91,7% «касыблыг – һүгугун позулмасыдыр» фикрини гејд етмишдирләр.

26. Сизчә гадынлар үчүн өз һүгугларыны горумағы өјрәнмәк нә дәрәчәдә лазымдыр?

Бу суала бүтүн рекионларда респондентләрин әксәр һиссәси (90% - 95%) мәсәләнин лазымлығыны гејд етмишдирләр (чәдвәл № 41).

27. Сиз аилә башчысы олуб, ишләјән гадынын касыблығыны арадан галдырмаг үчүн нә етмәк истәрдиниз?

Бу суалы чавабландырараг гадынларын ән бөјүк һиссәси (44,8%) «пешәмдән ајрылмадан әлавә кәлир әлдә етмәк үчүн имканларын јарадылмасына (кредитин верилмәси, грантын ајрылмасы, торпаг верилмәси, һәјәтјаны саһәдән топланан мәһсулун јериндә алынмасы вә с.) наил олмаг» фикрини гејд етмишдир (чәдвәл №44).

Бунунла јанашы, «дөвләт тәрәфиндән хүсуси тәдбир вә програмларын тәртиб едилмәсиндә иштирак етмәк» фикрини респондентләрин үмуми сајынын 38,4% гејд едәрәк бу мәсәләдә фәал олмаға һазыр олдугларыны билдирирләр. Демәли, онлар гәраргәбулетмәдә билаваситә иштирак етмәк истәјирләр. Дикәр тәрәфдән, нәзәрә алсаг ки, «Азтәминатлы аиләләрә дөвләт гајғысыны өз үзәриниздә һисс едирсинизми» суалына респондентләрин үмуми сајынын 81,9% «хејр» вә «гәтијјән һисс етмирәм» чавабыны вермишдир, демәли сөзү кедән гадынлар һесаб едир ки, онларын шәхсән иштиракы олмадан дөвләт тәрәфиндән һеч бир фајдалы програм вә тәдбирләр һазырланмајачаг, бу да онларын бу мәсәләдә һөкумәтә инамсызлығындан ирәли кәлир. Гејд етмәк лазымдыр ки, сөзү кедән гадынларын касыблығыны арадан галдырмаг үчүн «өлкә ганунларыны дәјишмәк лазымдыр» фикрини респондентләрин үмуми сајынын 34,5% дәстәкләмишдир. Фикримизчә, хүсусилә, бу факт бүтүн чәмијјәт тәрәфиндән, о чүмләдән ганунверичи, һөкумәт, ичтимаи вә бејнәлхалг тәшкилатлар тәрәфиндән чидди нәзәрә алынмалыдыр. Лакин гадынларын јалныз 2,6%-и сечкиләрдә өз намизәдлијини ирәли сүрүб сечилмәк истәјир.

Мараглы факт һәм дә будур ки, «мөвчуд тәшкилатларын фәалијјәтиндә иштирак етмәк» фикрини респондентләрин үмуми сајынын чәми 4,1% гејд етдији һалда, «мәним кими гадынлары бирләшдирән хүсуси тәшкилат јаратмаг» фикрини дәстәкләјәнләрин сајы респондентләрин үмуми сајынын 29,7% тәшкил етмишдир. Көрүнүр, мөвчуд гадын тәшкилатлары сөзү кедән проблемлә кифајәт гәдәр мәшғул олмурлар вә јахуд бу тәшкилатларын вә онларын фәалијјәти һаггында мәлумат сөзү кедән гадынлар арасында о гәдәр дә кениш јајылмамышдыр.

* * *

1999-чу илин декабр ајындан мај ајына гәдәр һәм аилә башчысы олан гадынларла, һәм дә гејри-һөкумәт тәшкилатларынын үзвләри илә јухарыда адлары чәкилән бөлкәләрдә **маарифләндирмә семинарлары** апарылмышдыр. Семинарлар 300-ә јахын гадыны әһатә етмишдир. Семинарларда кишиләр дә һәвәслә иштирак етмишләр. Семинарларын мөвзусу: «Гадынларын адекват һәјат сәвијјәси», «Гадынларын игтисади, сосиал вә әмәк һүгуглары вә онларын Азәрбајчанда һәјата кечирилмәсинин тәминаты» вә «Касыблыг инсан һагларынын позулмасыдыр» олмушдур. Семинарларда лајиһә мүәллифләриндән бири Әлијева Ирадәнин идејасы вә Мәсимов Ејвазын (Јени Нәсил) компүтердә тәртибаты нәтичәсиндә һазырланан бир рәнкли вә дөрд ағ-гара плакатдан (схемдән) истифадә олунмушдур. Схемләр бу адларла иди :

I. Азәрбајчанда гадынларын аилә башчысы олмаларынын сәбәбләри. Јухарыда садаланмыш сәбәбләрә семинар иштиракчылары әлавә етдиләр : Ләнкәранда – әри, ја атасы наркоман олдуғуна; Хачмазда – әри, ја атасы әлил олдуғуна; Бәрдәдә - һимајәсиндә гоһумлары олдуғуна; Бакыда – әри ја атасы алкоһолик олдуғуна көрә. Һәтта кишиләрдән бир чоху гадынларынын аилә башчысы олдуғуну өзләри етираф етмишләр. Бу да бир нөв аиләјә газанч кәтирә билмәк имканындан мәһрум едилмәләринә кишиләрин өзүнәмәхсус етираз сәсидир.

II. Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән ихтисаслы гадынларын касыблығына сәбәб олан амилләр – плакатдакы чаваблар: әмәк һаггы чох аздыр; сосиал мүавинәт вә имтијазлар ја чох чүзидир, ја да јохдур; аиләјә кәлән кәлир минимум тәләбләри өдәмир; аиләсинин әсас вә ја јеканә газанч кәтирәнидир; аиләси бөјүкдүр; әлавә кәлир мәнбәји јохдур; атасы, ја кечмиш әри јардым етмир; әри, ја атасы башга өлкәләрдән пул көндәрә

69335

М. Ф. Ахундов адына Азәрбајчан Республика КИТАБХАНАСЫ

билмир. Семинарда гадынлар мааш, тәгаүд вә мүавинәтләрин вахтында верилмәмәсини дә сәбәб кими әлавә етдиләр.

III. Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын касыблығынын нәтичәләри - плакатдакы чаваблар : өзү вә аиләси дојунча вә кејфијјәтли гида јеје, сағламлығыны горуја вә ја бәрпа едә, раһат, кениш вә ја тәмирли мәнзилдә јашаја билмирләр; чиркли әтраф мүһитдә јашамаға мәчбурдурлар; билик, дүнјакөрүшү вә пешәкарлығыны сахлаја вә ја артыра билмир; мәдәни һүгуглардан мәһрум олурлар, адекват һәјат сәвијјәси, давамлы инкишаф вә рифаһыны јүксәлтмәк һүгугундан мәһрум олурлар, вәтәндашлыг һисси зәифләјир, ја мәһв олур.

IV. 3-чү плакатла ејни адда олуб, бош бурахылмыш ханалара гадынларын семинарларда јаздыглары өз әлавәләри беләдир: Хачмазда: инсанын шәхсијјәт кими инкишафы мүмкүн олмур, һәјат мәнасыз олур, ушаглары тәһсилдән узаглашыр, јенидән аилә гура билмир. Ләнкәранда:, чәмијјәтин керилијинә, гызларын башга өлкәләрә сатылмасына, әсәбләрин позулмасына, инсана хас али кејфијјәтләрин итирилмәсинә, өз пешәсинә нифрәт јаранмасына, характеринә үјгун олмајан ишләрлә мәшғул олмасына сәбәб олур вә мадди касыблыг өлүмә бәрабәрдир. Бакыда: мәнәви јохсуллуға, ләјагәт һиссинин итирилмәсинә, истираһәтдән мәһрум олмасына, өвлад тәрбијәсиндә чәтинлијин јаранмасына, мәнзилдән мәһрум едилмәсинә, јарадычы ишлә мәшғул ола билмәмәсинә, әхласызлыға јуварланмасына, интиһар етмәсинә, чинајәтә сөвг едилмәсинә, аиләнин дағылмасына сәбәб олур. Касыблыг һәм дә чәмијјәтин вә халгын мәнәвијјатына бөјүк зәрбә вурур. Бәрдәдә: һәр шеје нифрәт һисси јаранур, савадсызлыг вә хәстәлик милләтин вә дөвләтин мәһвинә апарыр, тәһлүкәли хәстәликләрин артмасына кәтирир, дөвләтә инамсызлыг вә икраһ һисси јарадыр, инсана психоложи зәрбә вурур, чәмијјәт вә һәтта гоһум вә танышлар тәрәфиндән унудулур вә нәһајәт, касыблыг гапалы чәмијјәтин јаранмасына сәбәб олур.

Семинарлар үчүн дөрд чүр буклет һазырланмышды :

1. Бејнәлхалг сәнәдләрдә тәсбит олунмуш «Касыблығын инсан һагларынын позулмасы олдуғуна» аид маддәләрин садә мәзмуну.

2. Азтәминатлы аиләләрин сосиал мүдафиәси һаггында Азәрбајчан Республикасынын Ганунверичилијиндән сечмәләр.

3. Минимум истеһлак бүдчәси һаггында Азәрбајчан Республикасы Ганунундан сечмәләр.

4. Лајиһә, онун мүәллифләри вә ичрачылары һаггында мәлумат мәзмунлу.

Буклетләр семинар вә дәјирми масаларда, фәрди көрүшләрдә, сосиоложи сорғу вә имзатопланмасында иштирак едәнләр арасында пајланмышдыр.

Маарифләндирмә семинарынын материалларындан:

Бирләшмиш Милләтләр Тәшкилатынын (БМТ) низамнамәсинин әввәлиндә: «инсанын тәмәл һагларына, инсан шәхсијјәтинин ләјагәтинә вә дәјәринә, кишиләрлә гадынларын бәрабәр һүгугларына инам» тәсдиг олунур. Низамнамәнин 1 (3) маддәсиндә БМТ-нин мәгсәдләриндән бири кими һамынын инсан һаглары вә тәмәл азадлыгларына һөрмәти инкишаф етдирмәк вә дәстәкләмәк көстәрилир.



Үмумдүнја Инсан Һаглары Бәјаннамәси (ҮИҺБ) һүгуги чәһәтдән мәчбури олмаса да һамы үчүн бәрабәр һүгуглара наил олунмасынын үмуми стандартыны тәсбит едир. Бәјаннамә мүхтәлиф һүгугларын бөјүк топлусуну бәјан едир – мүлки, сијаси, сосиал, игтисади вә мәдәни һүгуглар. Онлар һәр бир кәсә имкан верир ки, елә сосиал вә игтисади гурулуша иддиа етсин ки, орада, нәзәрдә тутулан һүгуг вә азадлыглар там мәнасында реаллаша билсин. ҮИҺБ бәшәр тарихиндә һүгуглар һаггында илк бејнәлхалг разылашмадыр. 1948-чи илин 10 декабрында дүнја инсан ләјагәтинин јени үмуми нормаларыны гәбул етди вә онлары

елә мәчәлләјә салды ки, онунла дүнја халглары бундан сонра јашамалы идиләр. Мәһз бу бәјаннамә бүтүн дүнјаја әрз етмәјә имкан верди ки, үмумбәшәри һаглар – гадын һагларыдыр, гадын һаглары исә елә үмумбәшәри һаглардыр. Бүтүн гадынлар ајдын баша дүшүрләр ки, бу һаглар инсана аллаһ тәрәфиндән доғулдуғу андан верилир вә онлар да инсан аиләсиндә доғулублар. Лакин гадынлара онларын һагларынын там верилмәси бу күн әср әрзиндә һәлә дә һәлл едилмәмиш мәсәлә галды.

Инсан һаглары сырасында сосиал вә игтисади һүгуглар адамлара чәмијјәтин сосиал, игтисади вә мәдәни һәјатында иштирак етмәк имканы верир. Бу һүгугулар инсанларын чәмијјәтдә бирликдә јашамасы вә ишләмәси, һәјат үчүн әсас тәләбатлар олан гида, сығынаҹаг (мәнзил), чансағлығы вә мәдәни-мәнәви адәт-ән'әнәси илә бағлыдыр. Сосиал һүгуглара инсанларын аилә вә ичмаларда бирликдә јашамасыны, игтисади һүгуглара исә истеһсал, инкишаф, мадди сәрвәт вә ја һәјат үчүн әсас тәләбатлары идарә етмәсини аид едирләр. Мәһз сосиал вә игтисади һүгуглар инсанлары әсас тәләбатларындан мәһрум олмагдан горујур. Башга сөзлә, бу һүгуглар инсанларын физики мөвчудлуғу вә бу јашајышы нечә газанмаглары илә бағлыдыр. ҮИһБ-нин мүгәддимәсиндә дејилир ки, инсан аиләсинин бүтүн үзвләринә хас олан ләјагәт һиссинин тәсдиги, онларын бәрабәрлик вә ајрылмаз һүгуглары азадлығын, әдаләтин вә үмуми сүлһүн әсасыдыр. Инсан һүгугларына е'тинасызлыг вә нифрәт вәһши һәрәкәтләрә сәбәб олдуғуна көрә бу, бәшәрин вичданыны нараһат едир вә елә бир дүнја јарадылмалыдыр ки, адамлар орада башга азадлыгларла бәрабәр һәм дә еһтијачдан хилас олсунлар, инсанларын јүксәк арзулары бәјан едилсин. Инсан һүгугларынын ганун күчү илә мүһафизәси она көрә зәруридир ки, инсанлар мүстәбидлијә вә истисмара гаршы үсјана галхмағы сон чарә һесаб етмәјә мәчбур олмасынлар. БМТ халглары Низамнамәдә бунунла бәрабәр гәрара алмышлар ки, инсанын бөјүк азадлығы мүгабилиндә сосиал тәрәггијә вә һәјат шәраитинин јахшылашдырылмасына көмәк етсинләр.

ҮИһБ нин 8-чи маддәсиндә дејилир: «Һәр бир инсан Конститусијанын, јахуд ганунун она вердији әсас һүгугларын позулмасы һалларында бу һүгугларын сәлаһијәтли милли мәһкәмәләр тәрәфиндән бәрпа едилмәси һүгугуна маликдир.»

«Маддә 22 : Һәр бир инсан чәмијјәтин бир үзвү кими сосиал тәминат һүгугуна маликдир вә ләјагәтинин горунмасы үчүн лазыми тәдбирләрин һәјата кечирилмәси һүгугуна, игтисади, сосиал вә мәдәни саһәләрдә милли сәј 'ләр бејнәлхалг

әмәкдашлыг васитәсилә вә һәр бир дөвләтин гурулушуна вә еһтијатларына ујғун олараг шәхсијјәтинин азад шәкилдә инкишаф етдирилмәси һүгугуна маликдир.» Маддә 23 (1,2,4) :» һәр бир инсан әмәк, сәрбәст иш сечмәк, әдаләтли вә әлверишли әмәк шәраити, ишсизликдән горунмаг, һеч бир ајры-сечкилик олмадан ејни чүр зәһмәтин ејни чүр өдәнмәси һүгугуна, өз мәнафејини мүдафиә етмәкдән өтрү һәмкарлар иттифагы јаратмаг вә ја она дахил олмаг һүгугуна маликдир.»

quruluşun dəyişməsi	107	39,1	5	26,3	13	43,3	6	33,3	131	38,4
müharibə	101	36,9	5	26,3	17	56,7	5	27,8	128	37,5
beynəlxalq maliyyə təşkilatları	16	5,8	5	26,3			2	11,1	23	6,7
milli adət-ənənə	10	3,6	1	5,3	1	3,3			12	3,5

Orta təhsil

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
özü	46	35,1	3	10,3					49	25,1
əri	7	5,3	1	3,4			4	17,4	12	6,2
ərinin olmaması	49	37,4	7	24,1	5	41,7	12	52,2	73	37,4
atasının olmaması	3	2,3	1	3,4	1	8,3	1	4,3	6	3,1
valideynləri	2	1,5							2	1,0
ailəsinin böyük olmaması	6	4,6					2	8,7	8	4,1
uşaqların çox olması	3	2,3			1	8,3	1	4,3	5	2,6
dövlət	92	70,2	21	72,4	7	58,3	19	82,6	139	71,3
quruluşun dəyişməsi	50	38,2	5	17,2	2	16,7	11	47,8	68	34,9
müharibə	68	51,9	6	20,7	2	16,7	4	17,4	80	41,0
beynəlxalq maliyyə təşkilatları	3	2,3	9	31,0			2	8,7	14	7,2
milli adət-ənənə	6	4,6					1	4,3	7	3,6

Ümumi

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
özü	96	23,7	4	8,3	1	2,4	3	7,3	104	19,4
əri	33	8,1	1	2,1	5	11,9	7	17,1	46	8,6
ərinin olmaması	151	37,3	12	25,0	21	50,0	16	39,0	200	37,3
atasının olmaması	12	3,0	2	4,2	2	4,8	2	4,9	18	3,4
valideynləri	9	2,2					1	2,4	10	1,9
ailəsinin böyük olmaması	17	4,2	1	2,1	1	2,4	2	4,9	21	3,9
uşaqların çox olması	13	3,2	0	0,0	4	9,5	1	2,4	18	3,4
dövlət	291	71,9	37	77,1	20	47,6	33	80,5	381	71,1
quruluşun dəyişməsi	157	38,8	10	20,8	15	35,7	17	41,5	199	37,1
müharibə	169	41,7	11	22,9	19	45,2	9	22,0	208	38,8
beynəlxalq maliyyə təşkilatları	19	4,7	14	29,2			4	9,8	37	6,9
milli adət-ənənə	16	4,0	1	2,1	1	2,4	1	2,4	19	3,5

22. Ailənizə tək başçılıq etdiyinizə görə yaşadığınız cəmiyyətin sizə münasibəti necədir?

cədvəl №33

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
kömək etməyə çalışırlar	49	12,1	1	2,1	1	2,4	9	22,0	60	11,2
güzəşt edirlər	39	9,6			2	4,8	7	17,1	48	9,0
hörmətlə yanaşırlar	88	21,7	5	10,4	14	33,3	7	17,1	114	21,3
qibtə edirlər	5	1,2	1	2,1	1	2,4	1	2,4	8	1,5
bizə acıyırlar	58	14,3	2	4,2	14	33,3	7	17,1	81	15,1
pis nəzərlə baxırlar	40	9,9	16	33,3	4	9,5	3	7,3	63	11,8
xüsusi bir münasibət hiss etməmişəm	167	41,2	19	39,6	13	31,0	14	34,1	213	39,7
cavab verməkdə çətinlik çəkirəm	3	0,7	1	2,1					4	0,7

23. Sizcə ailəsinə başçılıq edib işləyən qadınların arasında kasıblığı azaltmaq üçün nə etmək lazımdır?

Ali təhsil

cədvəl №34

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
iş yerlərinin artırılması	76	27,7	12	63,2	8	26,7	6	33,3	102	29,9
əmək haqlarının artırılması	229	83,6	17	89,5	24	80,0	12	66,7	282	82,7
sosial müavinətləri artırmaq	73	26,6	7	36,8	14	46,7	5	27,8	99	29,0
sosial imtiyazlar vermək və ya bərpa etmək	40	14,6	4	21,1	5	16,7	2	11,1	51	15,0
bu ailənin uşaqlarına xüsusi dövlət qayğısı dövlət tərəfindən bu qadınlar üçün	27	9,9		0,0	4	13,3	5	27,8	36	10,6
xüsusi proqramın qəbul edilməsi	104	38,0	4	21,1	9	30,0	3	16,7	120	35,2
yerli iş adamların xeyriyyə yardımları	15	5,5			2	6,7			17	5,0
beynəlxalq təşkilatlar tərəfindən yardım tədbirlərinin artırılması (kredit, qrant, ixtisasartırma kursları və s.)	26	9,5	2	10,5	4	13,3	1	5,6	33	9,7

Orta təhsil

cədvəl №35

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
iş yerlərinin artırılması	42	32,1	21	72,4	3	25,0	14	60,9	80	41,0
əmək haqlarının artırılması	111	84,7	26	89,7	11	91,7	17	73,9	165	84,6
sosial müavinətləri artırmaq	31	23,7	6	20,7	3	25,0	4	17,4	44	22,6
sosial imtiyazlar vermək və ya bərpa etmək	12	9,2	1	3,4	2	16,7	1	4,3	16	8,2
bu ailənin uşaqlarına xüsusi dövlət qayğısı dövlət tərəfindən bu qadınlar üçün	33	25,2	2	6,9	3	25,0	6	26,1	44	22,6
xüsusi proqramın qəbul edilməsi	47	35,9	2	6,9			6	26,1	55	28,2
yerli iş adamların xeyriyyə yardımları	10	7,6					2	8,7	12	6,2
beynəlxalq təşkilatlar tərəfindən yardım tədbirlərinin artırılması (kredit, qrant, ixtisasartırma kursları və s.)	13	9,9	11	37,9			5	21,7	29	14,9

Ümumi

cədvəl №36

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
iş yerlərinin artırılması	118	29,1	33	68,8	11	26,2	20	48,8	182	34,0
əmək haqlarının artırılması	340	84,0	43	89,6	35	83,3	29	70,7	447	83,4
sosial müavinətləri artırmaq	104	25,7	13	27,1	17	40,5	9	22,0	143	26,7
sosial imtiyazlar vermək və ya bərpa etmək	52	12,8	5	10,4	7	16,7	3	7,3	67	12,5
bu ailənin uşaqlarına xüsusi dövlət qayğısı dövlət tərəfindən bu qadınlar üçün xüsusi	60	14,8	2	4,2	7	16,7	11	26,8	80	14,9
proqramın qəbul edilməsi	151	37,3	6	12,5	9	21,4	9	22,0	175	32,6
yerli iş adamların xeyriyyə yardımları	25	6,2			2	4,8	2	4,9	29	5,4
beynəlxalq təşkilatlar tərəfindən yardım tədbirlərinin artırılması (kredit, qrant, ixtisasartırma kursları və s.)	39	9,6	13	27,1	4	9,5	6	14,6	62	11,6

24. Qadının tək idarə etdiyi ailə ilə hər iki valideynin olduğu ailə arasında sizcə əsas fərq nədədir?

cədvəl №37

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
tək ana olan ailədə maddi sarsıntılar daha çoxdur	113	27,9	8	16,7	7	16,7	10	24,4	138	25,7
tək ana olan ailədə mənəvi sarsıntılar daha çoxdur	26	6,4			4	9,5	6	14,6	36	6,7
tək ana olan ailədə həm maddi həm də mənəvi sarsıntılar daha çoxdur	76	18,8	14	29,2	5	11,9	8	19,5	103	19,2
bilmirəm	34	8,4	23	47,9			1	2,4	58	10,8
fərqi yoxdur	30	7,4	3	6,3	2	4,8	1	2,4	36	6,7

25. Sizcə, ixtitsaslı, işləyən və ailəsinə başçılıq edən qadınların kasıb olması onların hüququnun pozulmasıdırmı?

Ali təhsil

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
bəli	175	63,9	18	94,7	12	40,0	6	33,3	211	61,9
qismən	38	13,9	1	5,3	6	20,0	4	22,2	49	14,4
xeyr	29	10,6			6	20,0	3	16,7	38	11,1
bilmirəm	36	13,1			7	23,3	4	22,2	47	13,8

Orta təhsil

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
bəli	91	69,5	24	82,8	8	66,7	15	65,2	138	70,8
qismən	11	8,4			1	8,3	2	8,7	14	7,2
xeyr	16	12,2	2	6,9	2	16,7			20	10,3
bilmirəm	8	6,1	2	6,9			7	30,4	17	8,7

Ümumi

cədvəl №40

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
bəli	266	65,7	42	87,5	20	47,6	21	51,2	349	65,1
qismən	49	12,1	1	2,1	7	16,7	6	14,6	63	11,8
xeyr	45	11,1	2	4,2	8	19,0	3	7,3	58	10,8
bilmirəm	44	10,9	2	4,2	7	16,7	11	26,8	64	11,9

26. Sizcə qadınlar üçün öz hüquqlarını necə qorumağı öyrənmək...

cədvəl №41

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
çox vacibdir	262	64,7	37	77,1	29	69,0	31	75,6	359	67,0
faydalı olardı	83	20,5	7	14,6	10	23,8	8	19,5	108	20,1
qismən lazımdır	20	4,9							20	3,7
qətiyyən lazım deyil	5	1,2							5	0,9
cavab verməkdə çətinlik çəkirəm	34	8,4	4	8,3	2	4,8	2	4,9	42	7,8

27. Siz ailə başçısı olub, işləyən qadının kasıblığını aradan qaldırmaq üçün nə etmək istərdiniz?

Ali təhsil

cədvəl №42

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
Peşəmdən ayrılmadan əlavə gəlir əldə etmək üçün imkanların yaradılmasına (kreditin verilməsi, qrantın ayrılması, torpaq verilməsi, həyətyanı sahədən toplanan məhsulun yerində alınması və s.) nail olmaq	120	43,8	10	52,6	21	70,0	6	33,3	157	46,0
Dövlət tərəfindən xüsusi tədbir və proqramların tərtib edilməsində iştirak etmək	112	40,9	7	36,8	8	26,7	6	33,3	133	39,0
Bu tədbir və programların həyata keçirilməsinə nəzarət etmək	52	19,0					4	22,2	56	16,4
Mənim kimi qadınları birləşdirən xüsusi təşkilat yaratmaq	71	25,9	6	31,6	7	23,3	4	22,2	88	25,8
Mövcud təşkilatların fəaliyyətində iştirak etmək	11	4,0	2	10,5			1	5,6	14	4,1
Vəziyyəti dəyişmək üçün seçkilərdə öz namizədliyimi irəli sürmək və seçilmək	8	2,9					1	5,6	9	2,6
Ölkə qanunlarını dəyişmək	90	32,8	12	63,2	5	16,7	6	33,3	113	33,1

Orta təhsil

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
Peşəmdən ayrılmadan əlavə gəlir əldə etmək üçün imkanların yaradılmasına (kreditin verilməsi, qrantın ayrılması, torpaq verilməsi, həyətyanı sahədən toplanan məhsulun yerində alınması və s.) nail olmaq	57	43,5	14	48,3	6	50,0	6	26,1	83	42,6
Dövlət tərəfindən xüsusi tədbir və proqramlarıntərtib edilməsində iştirak etmək	53	40,5	5	17,2	1	8,3	14	60,9	73	37,4
Bu tədbir və programların həyata keçirilməsinə nəzarət etmək	38	29,0	1	3,4			6	26,1	45	23,1
Mənim kimi qadınları birləşdirən xüsusi təşkilat yaratmaq	47	35,9	11	37,9	1	8,3	12	52,2	71	36,4
Mövcud təşkilatların fəaliyyətində iştirak etmək	6	4,6	2	6,9					8	4,1
Vəziyyəti dəyişmək üçün seçkilərdə öz namizədliyimi irəli sürmək və seçilmək	5	3,8					2	8,7	7	3,6
Ölkə qanunlarını dəyişmək	46	35,1	17	58,6	3	25,0	5	21,7	71	36,4

Ümumi

cədvəl №44

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
Peşəmdən ayrılmadan əlavə gəlir əldə etmək üçün imkanların yaradılmasına (kreditin verilməsi, qrantın ayrılması, torpaq verilməsi, həyətyanı sahədən toplanan məhsulun yerində alınması və s.) nail olmaq	177	43,7	24	50,0	27	64,3	12	29,3	240	44,8
Dövlət tərəfindən xüsusi tədbir və proqramlarıntərtib edilməsində iştirak etmək	165	40,7	12	25,0	9	21,4	20	48,8	206	38,4
Bu tədbir və programların həyata keçirilməsinə nəzarət etmək	90	22,2	1	2,1			10	24,4	101	18,8
Mənim kimi qadınları birləşdirən xüsusi təşkilat yaratmaq	118	29,1	17	35,4	8	19,0	16	39,0	159	29,7
Mövcud təşkilatların fəaliyyətində iştirak etmək	17	4,2	4	8,3			1	2,4	22	4,1
Vəziyyəti dəyişmək üçün seçkilərdə öz namizədliyimi irəli sürmək və seçilmək	13	3,2					3	7,3	16	3,0
Ölkə qanunlarını dəyişmək	136	33,6	29	60,4	8	19,0	11	26,8	184	34,3

YEKUN

Təhsil

cədvəl №45

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
orta	131	32,3	29	60,4	12	28,6	23	56,1	195	36,4
ali	274	67,7	19	39,6	30	71,4	18	43,9	341	63,6

cədvəl №46

Peşə	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
orta məktəb müəllimi	112	27,7	17	35,4	31	73,8	19	46,3	179	33,4
ali məktəb müəllimi	15	3,7							15	2,8
həkim	58	14,3	1	2,1					59	11,0
tibb bacısı,	61	15,1	12	25,0	3	7,1	5	12,2	81	15,1
məmur	40	9,9			3	7,1	1	2,4	44	8,2
alim, elmi işçi	31	7,7							31	5,8
müəssisədə işçi	28	6,9	13	27,1	1	2,4	8	19,5	50	9,3
incəsənət işçisi	10	2,5							10	1,9
usaq baxçası	16	4,0			4	9,5	4	9,8	24	4,5
kitabxana	25	6,2	2	4,2					27	5,0
AzTV,jurnalist	5	1,2	2	4,2					7	1,3
aqrar sahə							2	4,9	2	0,4

Yaş

cədvəl №47

	BAKI		XAÇMAZ		BƏRDƏ		LƏNKƏRAN		CƏMİ	
	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz	resp.	faiz
1971 +	19	4,7	2	4,2	3	7,1	5	12,2	29	5,4
1970-60	89	22,0	20	41,7	16	38,1	13	31,7	138	25,7
1959-50	110	27,2	20	41,7	15	35,7	12	29,3	157	29,3
1949-40	47	11,6	3	6,3	2	4,8	1	2,4	53	9,9
1939-30	29	7,2	1	2,1	1	2,4	1	2,4	32	6,0
1929 -	1	0,2							1	0,2

Гадын парламент үзвләринин Јығынчағынын күндәлијинә гадынларын инсан һаглары, гадынларын сијаси фәалијјәт тәчрүбәси вә онларын демократик просеси зәнкинләшдирмәси, гадынларын гејри-формал игтисади секторда вә микрокредитләрин алынмасында иштиракы, гадынларын вәзифәләрә ирәли сүрүлмәси вә с. мәсәләләр дахил едилмишди. Конфрансда мараглы мүддәалар гәбул едилмишдир:

(8) Дәрк едәрәк ки, сон һәддә касыблыг инсан һагларынын там вә долғун һәјата кечирилмәсинә мане олур, бәзән һәтта јашамаг һүгугуну тәһлүкә алтына гојур, касыблыға гаршы вә игтисади, сосиал вә мәдәни һүгуглардан истифадә етмәк имканы уғрунда мүбаризә бир-бириндән асылы олан мәгсәдләрдир.

(9) Инкишаф етмәк һүгугунун тәмәл инсан һагларынын ајрылмаз һиссәси олдуғунун бөјүк мәнасыны тәсдиг едәрәк, бу һүгугун һәјата кечирилмәси имканына наил олмаг елә шәраитин јаранмасына көмәк едәчәк ки, орада инсан һаглары вә тәмәл азадлыгларын истифадәси там һәчмдә тәмин олуначаг.

♦

12 Март 1999-чу ил тарихдә Њју-Јоркда чағрылмыш Гадын Статусу үзрә Комиссија, БМТ-нин Гадынлара гаршы ајры – сечкилијин бүтүн формаларынын ләғв олунмасы һаггында Конвенсијасына (CEDAW) Факултатив Протокол гәбул етмишдир. Бу протокол Гадын Конвенсијасындан истифадә етмәклә дискриминасијаја, о чүмләдән, гадына гаршы зоракылыға сон гојмаг имканыны күчләндирәчәк. Факултатив Протокол ики проседурдан ибарәтдир: рабитә проседуру ки, фәрди гадынлара, ја гадын групларына һүгугларын позулмасындан Гадынлара гаршы ајры-сечкилијин ләғв олунмасы үзрә Комитәјә шикајәт тәгдим етмәк имканы верир; сорғу проседуру ки, Комитәјә гадын һүгугларынын чидди вә ја систематок позулмасы һалларында сорғу тәшәббүсүнә имкан јарадыр. Һәр ики һалда дөвләтләр протоколун үзвү олмалыдырлар. Факултатив Протокол БМТ-нин Баш Ассамблејасына тәгдим едилиб ки, имза, ратификасија вә гәбул олунма үчүн ачыг олсун. Факултатив протокол 2000-чи илдә Конвенсијанын үмумдүнја ратификасијасы мәгсәдинә чатмагла бирликдә, гадынларын инсан һагларынын һәјата кечирилмәсиндә һөкумәтләрин өһдәликләринә доғру бөјүк аддымдыр. Факултатив Протокол әһәмијјәтли аләтдир вә ГҺТ-лары бирликдә ишләјәрәк бунун гадынларын инсан һагларыны мүдафиә етмәк үчүн истифадә олунмасынын ајдын вә көклү дәрк едилмәсинә көмәк едәчәкләр. 1999-чу илин 10 декабрындан (Инсан Һаглары күнү) Гадын Конвенсијасы үзрә Факултатив Протокол имза үчүн

ачыгдыр. Бүтүн дүнјадан гадынлар сәфәрбәр олунурлар ки, өз һөкумәтләрини Факултатив Протоколу имзаламаға мәчбур етсинләр. Белә ки, бу, ирәлидә кәлән Пекин+5 тәкрар бахыш просесинин мүдафиәсиндә сијаси ирадәнин көстәрилмәси оларды.

♦

Касыблығын инсан һагларынын позулмасы олдуғу вә касыблыгдан азад олмаг инсан һаггынын вә онун һәјата кечирилмәсинин тә'мин олунмасы үзрә һөкумәтләрин өһдәликләри бу тәдбирләрдә сәсләнмишдир: Бејнәлхалг Әмәк Тәшкилатынын Филаделфија Бәјаннамәси, Риодакы Дүнја Саммитиндә, Копенһакендә кечирилән Сосиал Инкишаф үзрә Үмумдүнја Саммити, Истанбулдакы Һабитат 2 конфрансы. Касыблыгдан азад олмаг инсан һаггы вә онун һәјата кечирилмәсинин тәминаты үзрә һөкумәтләрин өһдәликләри ады чәкилән сәнәдләрин маддәләриндә белә әкс олунмушдур :

- Әмәк әмтәә дејил; бир јердә касыблыг һәр јердә рифаһ үчүн тәһлүкә јарадыр; бүтүн инсанлар һәм өз мадди рифаһлары, һәм дә мәнәви инкишафларыны азадлыг вә ләјагәт, игтисади тәһлүкәсизлик вә бәрабәр имканлар шәраитиндә күдмәк һүгугуна маликдирләр. Бунун мүмкүн олачағы шәртләрә наил олмаг милли вә бејнәлхалг сијасәтин әсас мәгсәдини тәшкил етмәлидир.

- Касыблыг әлејһинә хүсуси стратекија давамлы инкишафы тәмин етмәк үчүн тәмәл шәртләрдән биридир . Касыблыг, инкишаф вә әтраф мүһит проблемләрилә мәшғул олмаг үзрә ефектив стратекија ресурслар, истеһсал вә инсанлар үзәриндә чәмләшмәклә башламалыдыр. Бу фәалијјәтин тәркиб һиссәси мәшғуллуг вә кәлир јарадан програмлары күчләндирмәклә касыблығы арадан галдырмаг үзрә бирбаша фәалијјәтдир.

- Касыблығын арадан галдырылмасы давамлы инсан јашајышы үчүн әсасдыр. Касыблығын арадан галдырылмасы принсипи һәм бүтүн инсанларын әсас еһтијачларыны гаршыламаг мәгсәдинә, һәм дә бүтүн гадын вә кишиләрә азад шәкилдә сечдикләри, мәһсулдар мәшғуллуг вә иш васитәси илә етибарлы вә даими доланышыг үчүн вәсаитә наил олмаг имканы верилмәси мәгсәдинә әсасланыр.

- Һөкумәтләр касыблығы арадан галдырмаг үчүн өһдәликләр көтүрүрләр. Онлар сијасәтләрини, һәр өлкә тәрәфиндән тәјин олунмуш вахтда касыблығы гәти арадан галдырмасы истигамәтиндә гурачаглар ; касыблығын әсас тәрәфләринә јөнәлдәчәкләр :гида тәһлүкәсизлији, тәһсил, доланышыг, сағламлыг, сығыначаг.

- Инсан һагларынын позулмасы, игтисади гејри-бәрабәрлик, касыблыг инсан гәрарлары үчүн дағыдычыдыр вә бүтүн дөвләтләр тәрәфиндән иттиһам олунмалы вә дүшүнүлмәлидир.

- Бүтүн дөвләтләр вә бүтүн инсанлар даими инкишафын ајрылмаз тәләби олан касыблығы арадан галдырмаг кими башлыча вәзифәдә әмәкдашлыг етмәлидирләр.

1996-чы илин јанвар ајында БМТ Баш Ассамблејасы «Касыблығын арадан галдырылмасы үчүн Бирләшмиш Милләтләрин биринчи Декадасы (1997-2006)»ны елан етмишдир.

* * *

Лајиһәнин ичрасы үзрә декабр (1999) – мај (2000) ајларында **журналистләрлә** мүтәмади **көрүшләр** кечирилмиш, КИВ-нин нүмајәндәләри семинарлара, дәјирми масалара вә мәтбуат конфрансына дәвәт олунмушлар. Бунун нәтичәсиндә бејнәлхалг програм, Азәрбајчан командасынын галдырдығы проблем вә лајиһәнин һәјата кечирилмә мәрһәләләри мәтбуатда, радио вә телевизијада (әсасән SPACE-дә) дәфәләрлә ишыгландырылмышдыр.

Декабр (1999), март вә апрел (2000) ајларында **3 дәјирми маса** кечирилмишдир. Дәјирми масаларда сосиологлар, игтисадчылар, һүгугшүнаслар, екологлар, тәһсил, сәһијјә, елм вә мәдәнијјәт ишчиләри, гејри-һөкумәт вә һүгуг мүдафиә тәшкилатларынын лидерләри, сијаси партијаларын үзвләри, гәзет вә журналларын редакторлары, журналистләр иштирак етмишләр.

Јанвар – мај ајларында лајиһәнин һәјата кечирилдији бөлкәләрлә бәрабәр Сумгајытда, Балакәндә, Астарада, Лерикдә, Гәбәләдә дә **1700-дән јухары аилә башчысы олан гадындан имза** топланмышдыр (бу просес давам едир). Имза вәрәгинин мәтни беләдир:

Ачыг Чәмијјәт Институту вә Бејнәлхалг Гадын, Ганун вә Инкишаф тәшкилатынын дәстәји илә реаллашан бејнәлхалг програм чәрчивәсиндә «Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы јоллары» лајиһәсинин ичрасы үзрә апардығымыз тәдгигатлар нәтичәсиндә ашкар етмишик ки, Азәрбајчанда аилә башчысы олан гадынларын (ихтисаслылар вә дөвләт мүәссисәләриндә ишләјәнләр дә дахил олмагла) сосиал-игтисади дуруму минимал јашајыш сәвијјәсиндән хејли ашағыдыр.

Биз һесаб едирик ки, мөвчуд проблемин һәлл едилмәси үчүн үјғун Дөвләт Програмынын гәбул едилмәсинә еһтијач вар. Биз лајиһәмизин мәгсәди кими аилә башчысы олан гадынларын вәзијјәтини јахшылашдырмаға јөнәлән Дөвләт Програмынын гәбулу илә бағлы тәклифләрлә чыхыш етмәк нијјәтиндәјик. Рәсми дөвләт органларына үнванланан тәклифләримиз нәзәрә алынарса, гејд едилән проблемин һәлли үчүн әсаслы тәминатларын јараначағына инанырыг. Бизим тәшәббүсүмүзә гошулмаг истәјирсинизсә, бу вәрәгә имза атманызы хаһиш едирик.

Бејнәлхалг програмын иштиракчылары вә лајиһәнин мүәллифләри: ***Ирадә Әлијева, Сәбинә Мәсимова, Ајтәкин Һүсејнова, Афаг Искәндәрова, Сәбинә Искәндәрли.***

♦

Команданын үзвләри вә лајиһәнин дикәр ичрачылары 2000-чи илин феврал-мај ајларында Милли Мәчлисин үзвләри, Назирликләрин, Президент апаратынын вә Гадын проблемләри үзрә Дөвләт Комитәсинин әмәкдашлары, бәләдијјә үзвләри, сијаси партијаларын игтисади мәсәләләр үзрә рәһбәрләри илә көрүшмүш вә онлары аилә башчысы олан гадынларын касыблығынын сон һәддә чатдығына вә буну азалтмаг вә арадан галдырмаг истигамәтиндә тәдбирләр көрүлмәсинә башланылмасынын вачиблијинә инандырмаға чалышмышлар.

2000-чи илин мај ајында **Президентә үнванланмыш мәктуб вә тәклифләр** һазырланыб тәгдим едилмишдир.

Азәрбајчан Республикасынын президенти Һејдәр Әлијев чәнабларына

Һөрмәтли президент,

Ачыг Чәмијјәт Институту - Азәрбајчан вә Бејнәлхалг Гадын, Ганун вә Инкишаф тәшкилатларынын дәстәји вә лајиһәси әсасында 1998-чи илин нојабрындан һәјата кечирилән "Гадынлар үчүн инсан һагларыны үзрә лидерлији тәкмилләшдирмә тренинги" бејнәлхалг програмы Шәрги Авропанын кечмиш сосиалист өлкәләрини, Монголустаны вә кечмиш ССРИ республикаларыны әһатә едир. Бу програмда иштирак етмәк үчүн Азәрбајчандан да биз - мүхтәлиф гејри-һөкумәт тәшкилатларыны тәмсил едән 5 нәфәр гадын чәлб олунмушуг. Биз програм чәрчивәсиндә 1998- 99-чу илләрдә гадынларын инсан һагларынын мүдафиәси стратеҝијалары үзрә бејнәлхалг тренингләрин иштиракчысы олмушуг. Биз алдығымыз нәзәри биликләрин нәтичәси кими "Аилә тәсәррүфатынын башчы-

сы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы јоллары" лајиһәсини һазырлајыб өлкәмиздә һәјата кечиририк.

Лајиһә чәрчивәсиндә апардығымыз тәдгигатларын нәтичәси көстәрир ки, һәр һансы сәбәбдән аилә башчысы олмуш вә гадынлар али вә орта ихтисас тәһсилли олмаларына, дөвләт мүәссисәләриндә ишләмәләринә вә әлавә әмәклә мәшғул олмаларына бахмајараг, өзләринин лајиг олдуглары һәјат сәвиҹҹәләрини тә'мин едә билмирләр. Бүтөвлүкдә исә аилә тәсәррүфатына башчылыг едән гадынларын бөјүк гисми касыблыг һәддиндә јашајыр. Өлкәдә касыблығын мөвҹудлуғуну исә һәм дә БМТ-нин Игтисади вә Сосиал Шурасына "Игтисади, сосиал вә мәдәни һүгуглар һаггында Бејнәлхалг Пакт"ын һәјата кечирилмәси илә бағлы Азәрбајҹан дөвләтинин һесабатына 4 јанвар 1996-чы ил тарихли әлавәсинин 122-чи бәнди тәсдиг едир. Үмумдүнја Инсан Һаглары Бәјаннамәси, Игтисади, Сосиал вә Мәдәни Һүгуглар үзрә Бејнәлхалг Пакт, Рио бејнәлхалг Саммитиндә, Копенһагендә кечирилән Сосиал Инкишаф үзрә Үмумдүнја Саммити, Истанбулдакы Һабитат 2 конфрансларында гәбул олунмуш сәнәдләрә әсасән касыблыг инсан һагларынын позулмасыдыр. Биз апардығымыз тәдгигатлара вә "Гадынларла бағлы ајры-сечкилијин бүтүн формаларынын арадан галдырылмасы һаггында" Конвенсијаја, Пекин Фәалиҹҹәт Платформасына, Азәрбајҹан Республикасынын Конститусијасында (маддә 16/1), "Азтә'минатлы аиләләрин сосиал мүдафиәси һаггында", "Минимум истеһлак бүдчәси һаггында" Азәрбајҹан Республикасы ганунларынын тәләбләринә әсасланараг һесаб едирик ки, аилә тәсәррүфатына башчылыг едән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы үчүн Дөвләт Програмынын гәбулуна еһтијаҹ вар. Биз аилә башчысы олуб бу тәшәббүсә гошулан гадынлардан 1500-дән чох имза топламышыг (имза топланмасы давам етмәкдәдир).

Азәрбајҹан Республикасы президентинин 14 јанвар 1998-чи ил тарихли "Азәрбајҹанда гадынларын ролунун артырылмасына даир тәдбирләр һаггында" сәрәнҹамынын вә 6 март 2000-чи ил тарихли "Азәрбајҹан Республикасында дөвләт гадын сијасәтинин һәјата кечирилмәси һаггында" фәрманынын мүддәаларындан чыхыш едәрәк Сиздән хаһиш едирик ки, аилә башчысы олан гадынларын инкишафына вә чәмиҹҹәтдә ролунун артырылмасына мане олан касыблығы арадан галдырмаг мәгсәдилә Дөвләт Програмынын гәбул олунмасы үчүн тәдбир көрәсиниз. Лајиһә мүәллифләрини дәстәкләјән аилә башчысы олан гадынлар диггәтдән кәнарда галмајачагларына инанырлар.

Бу сәнәдин һазырланмасы вә гәбулу илә бағлы биз дә өз тәклифләримизи диггәтинизә чатдырырыг.

Һөрмәтлә, Бејнәлхалг програмын иштиракчылары вә лајиһәнин мүәллифләри:

1. Ирадә Әлијева 2. Сәбинә Мәсимова 3. Ајтәкин Һүсејнова 4. Сәбинә Искәндәрли 5. Афаг Искәндәрова

10 мај 2000 ил

♦

"Гадынлар үчүн инсан һаглары үзрә лидерлији тәкмилләшдирмә тренинги" адлы бејнәлхалг програмын иштиракчылары вә "Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы јоллары" лајиһәсинин мүәллифләри вә ичрачыларынын аилә тәсәррүфатынын башчысы олан гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы үзрә Дөвләт Програмынын һазырланмасы илә бағлы Азәрбајҹан һөкумәтинә

тәклифләри

1. Аилә тәсәррүфатынын башчысы олан гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы үзрә Дөвләт Програмы лајиһәсинин һазырланмасына дөвләт структурлары илә јанашы гејри-һөкумәт гадын тәшкилатларынын нүмајәндәләри дә чәлб едилсин.

2. Дөвләт Програмы ашағыдакы әсас мәгсәдләрә наил олмаға истигамәтләнсин:

а) аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын бејнәлхалг сәнәдләрдә вә өлкә Конститусијасында тәсбит олунмуш игтисади, сосиал вә мәдәни һүгугларынын тә'мин едилмәси вә мүдафиәси;

б) дөвләт һакимиҹҹәт органларынын аилә тәсәррүфатынын башчысы олан гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасына јөнәлән фәалиҹҹәтләринин ваһидлијинин тә'мин едилмәси вә әлагәләндирилмәси;

в) аилә тәсәррүфатынын башчысы олан гадынлар арасында касыблығын азалдылмасы вә арадан галдырылмасы үзрә конкрет тәдбирләрин һәјата кечирилмәси.

3. Дөвләт Програмында нәзәрдә тутулан тәдбирләр мүхтәлиф сәбәбләрдән аилә тәсәррүфатына тәк башчылыг едән кишиләрә дә аид едилсин.

4. Дөвләт Програмында ашағыдакы тәдбирләрин һәјата кечирилмәси нәзәрдә тутулсун:

1) Азәрбајҹан Республикасынын касыблыгла мүбаризә үзрә дөвләтләрарасы вә бејнәлхалг сазишләрә гошулмасы үчүн мүвафиг тәдбирләрин көрүлмәси: ичра мүддәти - 2000-чи ил; ичра органлары - Назирләр Кабинети, Азәрбајҹан Республикасынын Харичи Ишләр Назирлији;

2) "Азәрбајҹан Республикасында касыблыгла мүбаризә һаггында" Дөвләт Програмынын һазырланмасы: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Азәрбајҹан Республикасы президенти јанында һүгуг ислаһат комиссијасы;

3) Касыблығын арадан галдырылмасы үзрә дөвләт органларынын, гејри-һөкумәт тәшкилатларынын вә бејнәлхалг тәшкилатларын фәалијјәтини әлагәләндирәчәк хүсуси гурумун јарадылмасы илә бағлы мүвафиг тәдбирләрин көрүлмәси: ичра мүддәти - 2000-чи ил; ичра органлары - Назирләр Кабинети, Азәрбајҹан Республикасы Президентинин Ичра Апараты;

4) Ганун лајиһәләринин һазырланмасы заманы касыблыгла мүбаризә үзрә бејнәлхалг сазишләрин принсипләринин нәзәрә алынмасы: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Азәрбајҹан Республикасы президенти јанында һүгуг ислаһат комиссијасы;

5) Азәрбајҹан Республикасында касыблыгла бағлы вәзијјәт һаггында информасијанын топланмасы вә јајылмасынын тә'мин едилмәси: ичра мүддәти - мүтәмади, һәр алты ајдан бир; ичра органлары - Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији, Дөвләт Статистика Комитәси, Мәтбуат вә Информасија Назирлији;

6) Аилә тәсәррүфатынын башчысы олан гадынларын статистик учотунун апарылмасы вә онларын сырасында јардыма еһтијаҹы оланларын мүәјјәнләшдирилмәси үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади, һәр үч ајдан бир; ичра органлары - Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији, Дөвләт Статистика Комитәси;

7) Аилә тәсәррүфатынын башчысы олан гадынлар үчүн иш јерләринин јарадылмасы үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

8) Мөвчуд ганунверичилик актларында аилә тәсәррүфатынын башчысы олан гадынлар, онларын ушаглары вә һимајәсиндә олан дикәр аилә үзвләри үчүн күзәштләри нәзәрдә тутан дәјишикликләрлә бағлы лајиһәләрин һазырланмасы: ичра мүддәти - 2000-чи ил, сентјабр; ичра органлары - Назирләр Кабинети, Азәрбајҹан Республикасы президенти јанында һүгуг ислаһаты комиссијасы;

9) Аилә тәсәррүфатынын башчысы олан гадынлара күзәштли кредитләрин верилмәси үчүн мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил; ичра органлары - Малијјә Назирлији, Азәрбајҹан Республикасынын Милли Банкы;

10) Аилә тәсәррүфатынын башчысы олан вә кәнд тәсәррүфаты рајонларында јашајан гадынлара күзәштли шәртләрлә торпаг саһәләринин ајрылмасы вә онларын зәрури техника илә тә'мин олунмасы үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил; ичра органлары - Кәнд Тәсәррүфаты Назирлији, Дөвләт Торпаг Комитәси, јерли ичра һакимијјәти органлары;

11) Аилә тәсәррүфатынын башчысы олан вә кәнд тәсәррүфаты рајонларында јашајан гадынларын истеһсал етдикләри кәнд тәсәррүфаты мәһсулларынын мүнасиб гијмәтләрлә јериндә алынмасынын тәшкили үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Кәнд Тәсәррүфаты Назирлији, јерли ичра һакимијјәти органлары;

12) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын ушагларынын мәктәбәгәдәр мүәссисәләрә пулсуз гәбулу, һабелә һәмин гадынларын али мәктәбләрдә пуллу тәһсил алан ушаглары үчүн күзәштләрин мүәјјән едилмәси үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил август; ичра органлары - Азәрбајҹан Республикасы Президентинин Ичра Апараты, Тәһсил Назирлији;

13) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын елм вә инчәсәнәт саһәләриндә фитри исте'дады олан ушагларынын габилијјәтләрини инкишаф етдирмәк үчүн зәрури шәраитин јарадылмасы үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Тәһсил Назирлији, Мәдәнијјәт Назирлији;

14) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын вә онларын аилә үзвләринин сәһијјә мүәссисәләриндә күзәштли шәртләрлә мүајинәси вә мүалиҹәси үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Сәһијјә Назирлији;

15) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын пулсуз һүгуги хидмәтлә тә'мин олунмасы саһәсиндә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Республика Прокурорлуғу, Дахили Ишләр Назирлији, Әдлијјә Назирлији, Азәрбајҹан Республикасы Президентинин Ичра Апараты;

16) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынлар, онларын ушаглары вә һимајәсиндә олан диҝәр аилә үзвләри үчүн нәзәрдә тутулан сосиал мүавинәтләрин алынмасы илә бағлы ганунда мөвчуд олан проседур гајдаларынын садәләшдирилмәси үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

17) Азтә'минатлы аиләләрин ушагларына тә'јин едилән мүавинәтләр үчүн мүәјјән олунмуш мәһдудијјәтләрин аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын ушагларына аид едилмәмәси үчүн мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Азәрбајчан Республикасы президенти јанында һүгуг ислаһат комиссијасы, Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

18) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынлар, онларын ушаглары вә һимајәсиндә олан диҝәр аилә үзвләри үчүн нәзәрдә тутулан тәгаүд вә сосиал мүавинәтләрин артырылмасы үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

19) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар үчүн әлавә иш јерләринин тәшкили үзрә тәдбирләрин һәјата кечирилмәси, мөвчуд иш јерләри барәдә һәмин гадынларын мүнтәзәм мә'луматландырылмасы: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

20) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын ишдә ихтисара дүшмәсинә јол верилмәмәси, бу, лабүд олдугда исә онларын үјғун ишлә тә'мин едилмәси үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

21) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын әмәк һагларынын артырылмасы үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Малијјә Назирлији, Азәрбајчан Республикасы Президентинин Ичра Апараты;

22) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын ихтисасларынын артырылмасы, компүтер програмларынын вә диҝәр техноложи јениликләрин мәнимсәнилмәси үчүн пулсуз курсларын тәшкили: ичра мүддәти - 2000-

чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Тәһсил Назирлији;

23) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын кәлир верҝисиндән азад едилмәси үзрә үјғун тәклифләрин һазырланмасы: ичра мүддәти - 2000-чи ил август; ичра органлары - Назирләр Кабинети, Малијјә Назирлији, Верҝиләр Назирлији, Азәрбајчан Республикасы президенти јанында һүгуг ислаһаты комиссијасы.

Бејнәлхалг програмын иштиракчылары вә лајиһәнин мүәллифләри.

10 мај 2000 ил·

♦

Мүрачиәт вә тәклифләр имзаланараг 10 мај 2000 ил тарихдә Президент апаратына тәгдим олунмушдур. 11 мај тарихдә «Коллектив 1247» сајлы сәнәд кими гејдијјата алынмышдыр вә артыг аидијјәти олан шөбәјә дахил олмушдур. Команданын үзвләри буну 19 мај 2000 ил тарихдә Президент апаратында ичтимаи-сијаси тәшкилатларла иш сектору мүдиринин гәбулунда оларкән дәгиғләшдирмишләр.

Аилә башчысы олан **гадынларла јекун көрүшләри** кечирилмиш вә онлара ишин һансы мәрһәләдә олдуғу барәдә мәлумат верилмишдир. Бу мүддәтдә бөлкәләрдә лајиһә рәһбәрләринин тәшәббүсү илә аилә башчысы олан гадынларын гејри-һөкумәт тәшкилатлары вә тәшәббүс груплары јарадылмышдыр.

Лајиһәнин рәсми һиссәсинин битмәси илә әлагәдар **мәтбуат конфрансы** кечирилмишдир.

Азәрбајчан командасы лајиһәсинин рәсми мүддәти гуртарса да, кәләчәкдә аилә башчысы олан касыб гадынлар үчүн һазырладыглары тәклифләрин јухары дөвләт органлары тәрәфиндән гәбул едилмәсинә вә һәјата кечирилмәсинә наил олмаға чалышачаглар.

16) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынлар, онларын ушаглары вә һимајәсиндә олан дикәр аилә үзвләри үчүн нәзәрдә тутулан сосиал мүавинәтләрин алынмасы илә бағлы ганунда мөвчуд олан проседур гајдаларынын садәләшдирилмәси үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

17) Азтә'минатлы аиләләрин ушагларына тә'јин едилән мүавинәтләр үчүн мүәјјән олунмуш мәһдудијјәтләрин аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынларын ушагларына аид едилмәмәси үчүн мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Азәрбајчан Республикасы президенти јанында һүгуг ислаһат комиссијасы, Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

18) Аилә тәсәррүфатынын башчысы олан азтә'минатлы гадынлар, онларын ушаглары вә һимајәсиндә олан дикәр аилә үзвләри үчүн нәзәрдә тутулан тәгаүд вә сосиал мүавинәтләрин артырылмасы үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

19) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынлар үчүн әлавә иш јерләринин тәшкили үзрә тәдбирләрин һәјата кечирилмәси, мөвчуд иш јерләри барәдә һәмин гадынларын мүнтәзәм мә'луматландырылмасы: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

20) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын ишдә ихтисара дүшмәсинә јол верилмәмәси, бу, лабүд олдугда исә онларын үјғун ишлә тә'мин едилмәси үзрә тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - мүтәмади; ичра органлары - Назирләр Кабинети, Әмәк вә Әһалинин Сосиал Мүдафиәси Назирлији;

21) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын әмәк һагларынын артырылмасы үзрә мүвафиг тәдбирләрин һәјата кечирилмәси: ичра мүддәти - 2000-чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Малијјә Назирлији, Азәрбајчан Республикасы Президентинин Ичра Апараты;

22) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын ихтисасларынын артырылмасы, компүтер програмларынын вә дикәр техноложи јениликләрин мәнимсәнилмәси үчүн пулсуз курсларын тәшкили: ичра мүддәти - 2000-

чи ил сентјабр; ичра органлары - Назирләр Кабинети, Тәһсил Назирлији;

23) Аилә тәсәррүфатынын башчысы олуб бүдчә тәшкилатларында ишләјән гадынларын кәлир веркисиндән азад едилмәси үзрә үјғун тәклифләрин һазырланмасы: ичра мүддәти - 2000-чи ил август; ичра органлары - Назирләр Кабинети, Малијјә Назирлији, Веркиләр Назирлији, Азәрбајчан Республикасы президенти јанында һүгуг ислаһаты комиссијасы.

Бејнәлхалг програмын иштиракчылары вә лајиһәнин мүәллифләри.

10 мај 2000 ил·

♦

Мүрачиәт вә тәклифләр имзаланараг 10 мај 2000 ил тарихдә Президент апаратына тәгдим олунмушдур. 11 мај тарихдә «Коллектив 1247» сајлы сәнәд кими гејдијјата алынмышдыр вә артыг аидијјәти олан шөбәјә дахил олмушдур. Команданын үзвләри буну 19 мај 2000 ил тарихдә Президент апаратында ичтимаи-сијаси тәшкилатларла иш сектору мүдиринин гәбулунда оларкән дәгигләшдирмишләр.

Аилә башчысы олан **гадынларла јекун көрүшләри** кечирилмиш вә онлара ишин һансы мәрһәләдә олдуғу барәдә мәлумат верилмишдир. Бу мүддәтдә бөлкәләрдә лајиһә рәһбәрләринин тәшәббүсү илә аилә башчысы олан гадынларын гејри-һөкумәт тәшкилатлары вә тәшәббүс груплары јарадылмышдыр.

Лајиһәнин рәсми һиссәсинин битмәси илә әлагәдар **мәтбуат конфрансы** кечирилмишдир.

Азәрбајчан командасы лајиһәсинин рәсми мүддәти гуртарса да, кәләчәкдә аилә башчысы олан касыб гадынлар үчүн һазырладыглары тәклифләрин јухары дөвләт органлары тәрәфиндән гәбул едилмәсинә вә һәјата кечирилмәсинә наил олмаға чалышачаглар.

Компүтер дизајны: Ејваз Мәсимов

Сосиоложи сорғунун нәтичәләринин тәртиби: Рүфәт Гаракөзлү

Формат 60x84 1/16. 4 ч.в. Тираж 1000 нүсхә.

Китаб "Јени Нәсил" Журналистләр Бирлијинин нәшријјат-полиграфија ресурс мәркәзиндә сәһифәләниб вә чап олунуб.

"Јени Нәсил" нәшријјат-полиграфија ресурс мәркәзи. Бакы, Рәшид Бећбудов күчәси, 10.

2000/906



323